İRFAN

№ 78 May 2013 İctimai fikir jurnalı 3 AZN



MÜSƏLMANIN PUL İLƏ İMTAHANI

Redaktordan

İRFAN
May/2013/№:78
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Baş redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2013 © All Rights Reserved
Created and supported by "irfan"
Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri:
Tel: 050 379 01 79

Şikayət və təkliflərniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

Bilindiyi kimi insan maddi və mənəvi cəhətlərə malik olan varlıqdır. Dinimiz hər zaman bu ikisi arasında müvazinəti qorumağı hədəfləmiş və bizə bunu təlqin etmişdir. Bizə lütf edilən maddi nemətlərdən tamamən uzaqlaşaraq mənəviyyatımızı gücləndirmək bəhanəsi ilə heç nəyə nail ola bilməyəcəyimiz kimi özümüzü maddənin əsirinə çevirirmiş kimi tamamən dünyanın ardınca düşmək də mənəviyyatımızı böyük ölçüdə zədələyəcəkdir. Elə isə bizdən istənən nədir və dünyada yaşayarkən hansı ölçülərə riayət etməliyik ki, maddəyə əsir olmayaq? Bütün bu sualların cavabını jurnalımızın bu sayında tapacaqsınız. "Müsəlmanın pulla imtahanı"na həsr etdiyimiz bu sayımızda:

"Vasitəni hədəfə çevirməyək", "İmanın əməldəki təzahürü" başlıqlı yazılar ana mövzumuzun bir növ xülasəsidir. Zəmanəmizdə çox yayılan ticarətdə yalan xəstəliyinin dinimizdə necə qarşılandığını eyniadlı məqalədə oxuyacaqsınız. Bu gün demək olar ki, hamının müraciət etdiyi kreditlə bazarlıq məsələləri barədə də yenə eyniadlı məqaləmiz kifayət qədət məlumat verir. Həmçinin İslam böyüklərindən İmam Əzəmin ticarət əxlaqını oxuyaraq əsil müsəlman tacir modelini gözünüzün önündə canlandıracaqsınız. Zəmanəmizin iqtisadi problemləri və islami həll yolları ilə əlaqəli iqtisadçı Ruslan Atakişiyevdən reportaj alaraq sizinlə paylaşdıq. Eyni zamanda ölkəmizdə əhəmiyyətli yerə sahib TÜSİAB təşkilatının baş katibi Yasin Göral bəylə Azərbaycan iqtisadiyyatı haqqında söhbətimiz oldu. Onu da dərgimizdən izləyəcəksiniz. Yeri gəlmişkən yaxınlaşmaqda olan "üç aylar" münasibətilə "Mənəvi ticarət mövsümü" və "Üç aylıq ömür" adlı iki yazını da sizə təqdim edirik. Haqq dostlarından hikmətlər rubrikasında "Əbul-Həsən Haraqanidən hikmətlər" bu sayımızda da davam edir. Ümidvarıq ki, könül insanının qələmindən çıxan bu yazılar könül dünyanıza rəng qatır. Ağsaqqal Nəsihəti rubrikamızda da Zaqatala rayonunun qocaman müəllimlərindən Nəbi Abdullayevlə müsahibəmiz yer alır. Bir-birindən maraqlı səhifələrimizlə görüşünüzə gəldik. Bir daha görüşmək ümidi ilə...

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

İmanın Əməldəki Təzahürü
Elşən Rzayev 6

Ticarətdə yalan
Müşfiq Xəlilov 8

Kreditlə Bazarlıq
Dr. Əhməd Niyazov 14

İmam Əzəm Və İş Əxlaqı
İbrahim Erol 16

"Tüsiab"ın baş katibi Yasin Göralla reportaj 18

Haqqa dönmüş qəlblə
Mübariz Əlioğlu 22

"Üç Ay"lıq Ömür
Rüfət Şirinov 24

Bir Ayə
Fuad Quliyev 26

Bir Hədis
Səfa Muradov 27

Ölümdə Yuxu Sevgisi
Eldar Kərimov 36

"Facebook"da Məhrəmlİk
Salih Zeki Meriç 38

Ağsaqqal Nəsihəti 40

Hikmət Lövhələri
Kamran Məmmədov 43

İnternet və Tabu Sənədli Filmləri 2
Adem Şahin 44

Dünyanın Dərdi var...
İlham Sovqatov 46

Sual-Cavab
Anar Qurbanov 48

Qorxularımız!
İsmayıl Vəliyev 50

Myanamada müsəlman qırğını
Alpay Əhməd 52

Xəbər 54

VASİTƏNİ HƏDƏFƏ ÇEVİRMƏYƏK
NURLAN MƏMMƏDZADƏ 4

İQTISADÇI RUSLAN ATAKIŞIYEVLƏ REPORTAJ 11

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR
ƏBUL-HƏSƏN HARAQANİ - 4 -
OSMAN NURİ TOPBAŞ 28

MƏNƏVİ TİCARƏT MÖVSÜMÜ
SALEH ŞİRİNOV 20

“28 MAY- RESPUBLİKA GÜNÜ”

28 May 1918-ci il Azərbaycanın ən parlaq və unudulmaz tarixi günlərindən biridir. 1918-ci ilin may ayının 28-də Azərbaycan Demokratik Cümhuriyyəti yarandı.

ADR Türk və İslam dünyasında ilk parlamentli respublika, hüquqi və dünyəvi dövlət idi. Az bir zaman ərzində böyük nailiyyətlər əldə edən Müstəqil Azərbaycan Cümhuriyyətini ilk dəfə 1918-ci il iyun ayının 4-də rəsmi surətdə tanıyan dövlət Osmanlı dövləti olmuşdur. Ozamankı Azərbaycan Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi.

1920-ci ildə Azərbaycan Cümhuriyyəti süquta uğrasa da “Bir kərə yüksələn bayraq bir daha enməz” şüarı 1991-ci ildə bir daha öz əksini tapdı və Azərbaycan yenidən öz müstəqilliyini elan etdi. Azərbaycan xalqı yenidən öz müstəqilliyini əldə etdikdən sonra bu müstəqilliyi tanıyan ilk dövlət məhz Türkiyə oldu. Ortaya çıxan yeni situasiya və xalqların bir-biri ilə sıx bağlılığı, eyni zamanda, dövlətlərimizin də çiyin-çiyinə verərək dayanmasını zəruri etdi. Bu müstəqillik illərində çox keşməkeşlər yaşadıq. Lakin xalqın xilaskar oğlu, hər zaman ürəklərdə yaşayan ümummilli lider Heydər Əlirza oğlu Əliyevin hakimiyyətə gəlməsi ilə qara günlər arxada qaldı. Bu gün respublikamız hörmətli prezidentimiz cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti ilə hər gün bir az daha irəliləyərək çiçəklənməkdədir. Biz fəxr edirik ki, Azərbaycan adlı müstəqil yurdumuz, müdrik rəhbərimiz var.

İRFANİ BAXIŞ
Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

VASİTƏNİ HƏDƏFƏ ÇEVİRMƏYƏK

İslam dini digər bir sıra dinlərdən və inanc sistemlərindən fərqli olaraq insanın yalnız ibadət həyatını nizamlamır, eyni zamanda onun gündəlik yaşam tərzini, insanlarla münasibətini, ailədəki rolunu, bir sözlə bütün hərəkət və hallarını istiqamətləndirir. Buna görə də bəzi dinlərdə olduğu kimi İslamda dini məbədə həbs etmək anlayışı yoxdur. Əgər siz müsəlmansınızsa, məbəddə də müsəlmansınız, küçədə də, iş yerində də, evdə də. Yəni belə olmaq məcburiyyətindəsiniz. Hər bir insanın yaşam tərzində istisnasız rolu olan bir fenomen var: maddiyyat. Əgər insanın maddə və mənadan ibarət varlıq olduğunu qəbul etmişiksə (və ya etmək məcburiyyətindəyiksə), deməli, onun öz maddəsini yaşatması, davam etdirməsi üçün digər maddələrə ehtiyacı var. İstifadə etdiyimiz hər bir əşya, yediyimiz hər bir qida bu mənada maddi həyatımızı davam etdirməyə kömək edən ünsürlərdir. Pul isə bütün bunları əldə etmək üçün bir vasitədir və vasitə olaraq qalmalıdır. İslam dini insanın maddə ilə olan münasibətində müəyyən kriteriyalar ortaya qoymuş, keçilməsi qadağan olan sərhədlər çəkmişdir. Çünki maddəni əldə etmək uğrunda həddi aşmaq insanın fəlakəti və əsil insani tərəfi olan mənəvi aləminin məhvi sayılır. Allah-Təala insana dünyasını qazanması üçün bütün məşru addımları atmağa icazə vermişdir. Lakin ona Allahı unutduran davranışları, maddiyyatın, pulun, dəbdəbənin gözqamaşdırıcı sehrinə düşərək insanlığını itirməsini qadağan edir və bu yolda ona nəsihətlər verir.

Qurani-Kərim və Həzrət Peyğəmbərin hədisləri bizə nəyin doğru, nəyin yanlış olduğunu göstərir. Məsələn, yetimin haqqını yemək, çəkidə başqalarını aldatmaq, iş yerində digər insanların haqlarına təcavüz sayılacaq əməllər, qeyri-sağlam rəqabət, rüşvət almaq, yalana əl atmaq və s. kimi insan mənəviyyatını alçaldan bü-

tün neqativ hallar dinimizdə açıq-aşkar bildirilmişdir. İnsanın bu kimi günahlara dalması xüsusilə Rəbbini unutduğu an başlayır. İnsan Rəbbini unudarsa, maddənin əsirinə çevrilərsə, bu zaman onun var-dövlət yığmaq uğrunda əl atmayacağı heç bir yol yoxdur. Bildiyimiz kimi şeytan ilahi dərgahdan qovularkən Allaha and içərək "**Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacağam!"** (əl-Əraf, 16) -demişdi.

İlahi təlimatları dərk edərək yaşadığımız dünya həyatına baxdığımız zaman asanlıqla görərik ki, şeytanın bizi azdırmağa çalışdığı yollardan biri də gündəlik məişətimizi qazandığımız iş həyatımız, qazanc meydanımızdır. Bəzən cəmiyyətdə belə bir fikrin formalaşdığının şahidi oluruq: filankəs ibadət əhlidir, amma bir neçə ticarət obyektini idarə edir. İlk növbədə bunu qəbul etməliyik ki, dinimiz əsla və əsla insanın qazanmasına, qazancını dəfələrlə artırmasına qarşı çıxmır. Dinimiz sadəcə olaraq qazanc əldə edərkən başqalarının haqq və hüquqlarını tapdalamağı, kiminsə ruzisinə baislik edərək onun çörəyini mənimsəməyi, qazanc əldə etmək naminə ekologiyanı məhv etməyi, eyni zamanda digər haram yollara baş vurmağı və bu yolla varlanmağı qadağan edir. Yoxsa əlbəttə ki, müsəlman Rəbbinin yaratdığı imkanlardan faydalanaraq lazımınca çalışmalıdır. Qazanmalıdır ki, imkansızlara da əl tutsun, qazanmalıdır ki, başqalarına möhtac olmasın, ayaq üstə dura bilsin.

Müsəlman ilk növbədə bunu dərk etməlidir ki, dünya həyatı imtahan yeridir və müxtəlif səbəblərlə sınağa çəkilir. Zənginlik də, kasıblıq da əslində insanın imtahanıdır. Elə isə müsəlman zənginlik və kasıblıq imtahanında necə hərəkət etməlidir? Bunu da Həzrət Peyğəmbər hədisi-şərifində belə buyurur: *"Möminin halı necə də gözəldir! Onun hər işi özü üçün xeyirlidir. Bolluq içində olanda şükür edər və bu onun üçün xeyirlidir. Qıtlıqla qarşılaşanda səbir edər, bu da onun üçün xeyirlidir"*. Bəli, müsəlmanın sərvət qarşısında duruşu məhz bu cür olmalıdır. İslamı layiqincə dərk etmiş bir müsəlmanı heç vaxt var-dövlət azdıra bilməz. Eyni zamanda qıtlıq və kasıblıq da qəddini əyə bilməz. Çünki o, ayeyi-kərimədə buyurulan **"Ey Allahım, mülkün sahibi sənsən Mülkü istədiyin şəxsə verər, istədiyindən alarsan istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!"** (Ali-İmran, 26) həqiqətini dərk etdiyi üçün dünya adına əldə etdiyi və edə bilmədiyi hər şeyi sadəcə bir vasitə olaraq görür, hədəf deyil. Vasitəni hədəfə çevirməyən insanlar necə də xoşbəxtdirlər.

Dinimiz əsla və əsla insanın qazanmasına, qazancını dəfələrlə artırmasına qarşı çıxmır. Dinimiz sadəcə olaraq qazanc əldə edərkən başqalarının haqq və hüquqlarını tapdalamağı, kiminsə ruzisinə baislik edərək onun çörəyini mənimsəməyi, qazanc əldə etmək naminə ekologiyanı məhv etməyi, eyni zamanda digər haram yollara baş vurmağı və bu yolla varlanmağı qadağan edir. Yoxsa əlbəttə ki, müsəlman Rəbbinin yaratdığı imkanlardan faydalanaraq lazımınca çalışmalıdır. Qazanmalıdır ki, imkansızlara da əl tutsun, qazanmalıdır ki, başqalarına möhtac olmasın, ayaq üstə dura bilsin.

Elşən RZAYEV
elshanrza@hotmail.com

İMANIN ƏMƏLDƏKİ TƏZAHÜRÜ

İman lüğət mənası baxımından bir kimsənin sözünü təsdiq etmək, qəbul etmək, həmin sözə etimad etmək, onu ürəkdən mənimsəmək, inanmaq mənalarına gəlir. Mömin isə sözünə etimad edilən, insana etibar təlqin edən dürüst insan deməkdir. Yəni mömin Allah-Təalanın əmrlərini yerinə yetirən, Onun buyuruqlarını qəbul edən və onları öz həyatında əmələ çevirərək yaşamağa çalışan insandır. İman ürəkdə məhkum olan bir əqidə, dilə gətirilən quru bir iddia deyil. İman həyatın mərkəzinə axirəti qoymaqdır.

İmanı qüvvətləndirən isə əlbəttə ki, saleh əməllərdir. Bu baxımdan deyə bilərik ki, əməl imanın meyvəsidir. Həmçinin saleh əməl insan üçün iki böyük düşmən olan şeytan və nəfsin iqtidarını yıxaraq, yalnız Allaha qul olmağın ifadəsidir.

Müsəlmanın həyatı vəhyə görə formalaşmalıdır. "Xaliq", "Rəbb" və "Rəzzaq" əsmasının təcəllisi olaraq Uca Yaradan bütün canlılar üçün ruzi xəlq etmiş, sonsuz nemətlərini yaradılan bütün canlıların istifadəsinə vermişdir.

İnsanın bu dünyada yaşayışını davam etdirməsi üçün ev, ev əşyası, yemə-içmə, paltar kimi bəzi təbii ehtiyacları var. İnsan gündəlik həyatdakı bu ehtiyaclarını qarşılamaq üçün əlbəttə ki, işləməli və qazanc əldə etməlidir. Bu ehtiyacları təmin etmək üçün isə müxtəlif yollar var. Həmin yollardan biri də ticarətdir.

Ticarətlə məşğul olmaq tənbəlliyə qarşı bir inqilabdır. Həzrət Ömər (r.a) aşağıdakı sözləri ilə halal yoldan qazanc əldə etməyi necə gözəl ifadə edir: "Heç kimsə yerində oturub "Allahım, mənə ruzi ver" deməsin. Bilin ki, Allah-Təala göydən qızıl və gümüş yağdırmaz."

Uca Yaradanın insan övladı üçün seçdiyi son din olan İslam ticarəti halal qazanc yollarından biri olaraq qəbul etmişdir. Ticarət tarixi bəşəriyyətin tarixi qədər qədimdir. İlk insan və ilk peyğəmbər olan Hz. Adəmin (ə.s) o dövrün şərtlərinə görə çalışaraq ruzi əldə etdiyi rəvayət edilir.

İbrahim (ə.s) parça ticarəti, Nur (ə.s) və Zəkəriyyə (ə.s) dülgərlik, Əyyub (ə.s) əkinçilik peşəsi ilə məşğul olmuşlar. Həmçinin Hz. Davudun (ə.s) zireh düzəltdiyi və bunları sataraq dolanışığını təmin etdiyi rəvayət olunur.

Rəsulullah (s.ə.s) hədisi-şərifdə belə buyurur:

"Heç bir kimsə əlinin əməyini yeməkdən daha xeyirli ruzini əsla yeməmişdir." (Buxari)

Digər bir hədisi-şərifdə də: "Sizdən birinizin ipini götürüb arxasında dağdan bir bağlama odun gətirib satması, bir kimsəyə əl açmasından daha xeyirlidir. Kim bilir o şəxs də ya verər, ya da verməz." (Buxari, Büyu, 2074)

İnancımıza görə bir insanın öz zəhməti ilə və alın təriylə qazandığı qazanc ən xeyirli və bərəkətli qazancdır.

Həmçinin İslamın şanlı Peyğəmbəri olan Hz. Məhəmməd (s.ə.s) də ticarətlə məşğul olmuş, həyatın hər sahəsində olduğu kimi ticarətdə də doğruluğu, sədaqəti və etibarlılığı ilə ümmətinə ən gözəl nümunə olmuşdur.

İnsan layiq olmadığı qazancla cibini və büdcəsini doldurmaq üçün digərlərini ziyana saldığı və əldə etdiyi fani mənfəətlərdən zövq aldığı təqdirdə zahirən müsəlman görünsə də, əslində zehniyyət olaraq və əməli baxımdan kapitalistdir. Çünki müsəlmanın inanc sistemində "Başqasına mərhəmət etməyənə Allah mərhəmət etməz!" düsturu vardır. Bizim inancımızda başqalarını istismar etmək üçün istifadə edilən yolların qarşısı qətiyyətlə kəsilmişdir.

Hz. Ömərin oğlu Abdullah belə deyir: "Bir müsəlman olaraq beliniz bükülüncəyə qədər namaz qılsanız, tük kimi nazilənə qədər oruc tutsanız, haram qazancdan uzaqlaşmadıqca bu ibadətləriniz qəbul olmaz və ibadətlərinizin sizə faydası toxunmaz."

İmanlı kimsənin həyatında alış-verişdə malın vəziyyətini olduğu kimi söyləmək, əgər varsa, qüsurları gizlətməmək və ya yalan danışmamaq əsas qaydadır. Müsəlman ticarət həyatında müştərinin məlumatsızlığından istifadə edərək onu aldatmaz. Müsəlman tacir işçisinin haqqını və zəhmətinin qarşılığını hesab edərkən, müştəriyə mal satarkən doğruluq və dürüstlükdən əsla ayrılmaz. Çünki dürüst olmaq imanla birbaşa əlaqəlidir. Peyğəmbərimiz: "Allaha inandım de və doğru ol" (Müslim, İman, 13) buyurur. Çünki düzgünlük insanı cənnətə qovuşdurur.

Elçin Əsgərov (sahibkar): Qazanmaq qədər xərcləmək də mühümdür.

İrfan: *Müsəlman iş həyatında, qazanc sektorunda nələrə diqqət etməlidir?*

Elçin Əsgərov: Allah Rəsulu buyurur ki, sadiq tacirlər qiyamət günü peyğəmbər və salehlərlə birlikdə olacaqlar. Dövrümüzün ən əsas problemlərindən biri saleh tacir olmaqdır. Ticarətdə dürüstlük Həzrət Peyğəmbərin sünnəsidir. Digər məsələ halaldan qazanmaqdır. Zəmanəmizdə bu çox çətindir. Amma unutmamaq lazımdır ki, ibadətlərimizdə ixlas və xüşunun əldə edilməsi üçün əsas amillərdən biri halal qazancdır.

İrfan: *Bu gün halaldan qazanmaq üçün nələrə diqqət etməliyik?*

Elçin Əsgərov: İslami qaydalara diqqət edilməlidir, Həzrət Peyğəmbərin ticarət və qazanc əxlaqından nümunə götürməliyik. Bərəkəti müştəridən gözləməməliyik. Unutmamaq lazımdır ki, ruzini verən Allahdır. Ticarət və iş həyatında Allah Rəsulunun qoyduğu düsturlara riayət etməliyik. Elə etmək lazımdır ki, qazandıqlarımız eyni zamanda o biri dünyamız üçün də sərmayə olsun. Bu baxımdan xərcləməyə də diqqət etmək lazımdır. Pulun harada xərcləndiyi onun haradan qazanıldığının bir göstəricisidir.

İrfan: *Ticarətdə olanlara nə deyədiniz?*

Elçin Əsgərov: Ən mühüm xüsus Allaha qul olmaqdır. Ticarətlə məşğul olan hər kəs Qurandan Şueyb (ə)-ın qissəsini oxumalı və onun Eykə xalqına tövsiyələrinə qulaq verməlidir. Hamının öz ruzisi var, heç kim yazılandan artığını yeyə bilməz, bunu unutmayaq. Zəngin olmağa çalışmalı, ancaq Allahı əsla unutmamalıyıq. Hər şeyin əsası bu düsturdur: "Əl karda, könül yarda"...

Müşfiq XƏLİLOV
muslimxalil@hotmail.com

Ticarətdə yalan

Bir cəmiyyətin maddi-mənəvi inkişafı və tənəzzülü bu cəmiyyətdə yaşayan fərdlərin əxlaqi keyfiyyətlərindən asılıdır. Əgər cəmiyyətdə mənəvi tənəzzül və gerilik varsa, bu, cəmiyyəti təşkil edən fərdlərin mənəvi xəstəliyi səbəbindəndir. Bu geriliyi inkişafla əvəz etmək isə cəmiyyətin üzvləri olan fərdlərin səy və istəyinə bağlıdır. Çünki Allah Qurani-Kərimin "Rəd" surəsinin 11-ci ayəsində buyurur ki, bir xalq özünü dəyişmədikcə, Allah onları dəyişməz. Bu yazımızda ticarətdə yalan mövzusuna toxunacağıq. Ümumiyyətlə yalan həm çox iyrənc və haram olan əməl, həm də ən böyük günah sayılır. Çünki ən böyük günah olan şirkin özü də bir növ yalandan ibarətdir. Allah-Təala uca kitabımız Qurani-Kərimdə belə buyurur:

"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsil yalançıdırlar!"

"... Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!"

"Onlar elə güman edirlər ki, Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar. Onların ürəyində mərəz var. Allah onların mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!"

İndi isə gəlin görək, bəs ticarətdə necə, yalanın yeri varmı?! Bu suallara ən yaxşı cavabı yenə də Allahın kitabı və Onun Rəsulunun (s.ə.s) hədisləri verir. Allah-Təala ölçü və tərəzidə aldatmamağı əmr edərək belə buyurur:

"... Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz!"

"Ölçəndə ölçüdə düz olun, çəkəndə düzgün tərəzi ilə çəkin. Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır!"

"Ölçüdə düz olun, əskildənlərdən olmayın!" Allah Rəsulu (s.ə.s) də hədislərində bizi aldatmaqdan və ticari yalandan belə çəkindirir:



"Bizə qarşı hiylə quran (bizi aldadan) bizdən deyildir".

"Rəsulullah (s.ə.s) bazarda buğda satan bir adam gördü. Əlini həmin məhsulun içinə saldı və çıxartdı. Barmaqlarına rütubət (nəm) dəydi. O malı satan adama: "Ey satıcı, bu nədir?", - deyə səsləndi. O adam da: "Ey Allahın Rəsulu, yağış ıslatdı" deyincə, Rəsulullah (s.ə.s) ona: "Bu nəm olan ərzaqı üstə gətirib, hər kəsin görməsini təmin etməli deyildinmi? Kim bizi aldadırsa o bizdən deyildir", - buyurdu.

Uca Allah ticarətdə yalanı "fitnə-fəsad" adlandıraraq belə buyurur:

"Mədyən tayfasına da qardaşları Şüeybi peyğəmbər göndərdik. Şüeyb onlara belə dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil gəldi. Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın. Yer üzü düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu dediklərim sizin üçün xeyirlidir!"

Aldadan şəxs insanların etibarını itirər və etibarsız adam kimi tanınar. Ticarət həyatında etibarlılıq çox əhəmiyyətlidir. Etibarsız adamla heç kəs ortaqlıq qurmaz, şərikli işə girişməz. Aldadan şəxs aldatdığı təqdirdə əldə edə biləcəyi gələcək daimi müştərilərini itirər: Çinki bir dəfə aldandığını bilən insan o satıcıdan təkrar gedib mal almaz və tanışlarını da bundan çəkindirər.

Başqa bir ayədə isə belə buyurulur:

"...Ölçünü və çəkini əskiltməyin. Mən sizi xeyir-bərəkət içində firavan yaşamaqda görürəm. Bununla belə Allahın hökmlərinə riayət etməyəcəyiniz təqdirdə sizi bürüyəcək bir günün əzabından qorxuram! Ey qövmüm! Ölçüdə və çəkidə düz olun. İnsanların heç bir şeydə haqqını əskiltməyin. Yer üzündə gəzib fitnə-fəsad törətməyin!"

Aldadan şəxs aldatdığı insanların qul

Vüqar Cabbarov (Sahibkar): Halal-harama diqqət etməyənin həyatının bərəkəti olmaz.

İrfan: -Müsəlmanın iş həyatı necə olmalıdır?

-Müsəlman "Heç ölməyəcəkmiş kimi dünya, sabah öləcəkmiş kimi axirət üçün çalışmaq" prinsipi ilə yaşamalıdır. Ticarətdə əsas olan düzgünlükdür. Doğrudur, indiki dövrdə bunu bacarmaq çox böyük hünərdir. Ancaq hər insan bacardığı qədər bunu həyata keçirməlidir. Qazanca haram qarışdırmaq olmaz.

İrfan: -İslam ticarətdə halal ruzi qazanmağı əmr edir. Halal ruzi qazanmaq insan həyatı üçün nə dərcədə əhəmiyyət kəsb edir?

- İnsan evdən iş üçün çıxırsa, onun üçün təqdir edilmiş ruzini qazanır. Ancaq bu zaman diqqət etmək lazımdır ki, bugünkü qazancımız halaldırmı? Axı onu evə aparıb övladımıza yediririk. Ona görə də bacardığım qədər övladlarıma halal ruzi qazanmağa çalışıram. İnanıram ki, övladlarının gələcəyini düşünən hər bir valideyn qazancının halal olmasına diqqət etməlidir. Övladlarına haram yedirənlər öz əlləri ilə onların gələcəyini məhv edirlər. İnanın, əgər insanın boğazından bir loğma haram tikə keçərsə, şeytan da o loğma ilə onun bədəninə girər. Halal-harama diqqət etməyənin həyatının bərəkəti olmaz. Haram tikə istər-istəməz insanın əxlaqında, davranışlarında özünü büruzə verir. Şəxsən mən hər axşam öz-özümü hesaba çəkirəm ki, bu gün mənim qazancım hardan gəlib, hara xərclənəcək. Haqsız qazanc mütləq şəkildə lazımsız yerlərə xərclənər.

haqqına təcavüz edir: "Qul haqqı" da həddindən artıq təhlükəli məsələdir. Çinki "qul haqqını" Allah bağışlamır, bu Allahın deyil, bəndələrin haqqıdır. Aldadılan bəndə aldadan şəxsi bağışlamasa, o şəxs Allah tərəfindən də bağışlanmaz və cənnətə girə bilməz. Qiyamət günü aldatdığının qarşılığında aldadanın savabları aldatdığı şəxsə verilir. Aldadan şəxsin bu dünyadakı qazancından bərəkət çəkilər. Onun əyri yolla qazandığının, ruzisinin bərəkəti olmaz. Aldadan şəxs özünə gələ biləcək xeyir və bərəkətdən məhrum qalar. Aldadan şəxs insanların etibarını itirər və etibarsız adam kimi tanınar. Ticarət həyatında etibarlılıq çox əhəmiyyətlidir. Etibarsız adamla heç kəs ortaqlıq qurmaz, şərikli işə girişməz.

Aldadan şəxs aldatdığı təqdirdə əldə edə biləcəyi gələcək daimi müştərilərini itirər: Çinki bir dəfə aldandığını bilən insan o satıcıdan təkrar gedib mal almaz və tanışlarını da bundan çəkindirər.

Əyrilik və aldatmaqdan çəkinən düzgün müsəlman tacir isə Allahın rəhmətini və razılığını qazana bilər: Allah Rəsulunun bununla bağlı belə dediyi bildirilir: "Etibarlı, düzgün, müsləman tacir, Qiyamət günündə şəhidlərlə bir yerdədir" Ticarətdə halala və harama diqqət edən tacir qul haqqına girməkdən qorunar. Savab qazanar: Çünki hansısa bir günah işləməkdən qaçmaq və çəkinməyin özü də böyük savabdır. Qazancı bərəkətli və halal olar. Ticarət aləmində etibarı artar. Daimi müştəriləri olar.

Uca Allah bizi ticarətdə yalan danışmaqdan, yalan yerə and içməkdən qorusun!

Alış-veriş yoluyla əldə etdiyimiz qazancımızı bərəkətləndirsin! Ticarət əxlaqımızı gözəlləşdirsin! Amin!

Rövşən Nəsir (sahibkar): Halal ticarətdə ibadət zövqü var

İrfan: *Ticarətdə əsas olan nədir sizcə?*

Rövşən Nəsir: Ticarətdə ən mühüm amil bərəkətdir. Bir adam dünyanın pulunu qazana bilər, amma bərəkət olmazsa, qazancından heç bir fayda olmaz. Ticarətdə bərəkət o zaman olur ki, tacir Allahın rizasını hər şeydən üstün tutur. Buna görə də ticarətdə islami qaydalara əməl edənlər mütləq qazanc içindədirlər. Halal ticarətdə ibadət zövqü var.

İrfan: *Bəs müştəri-satıcı münasibətləri necə olmalıdır?*

Rövşən Nəsir: Bəziləri elə düşünürlər ki, müştərini aldatmaqla qabağa düşürlər. Əslində isə müştərini nə qədər məmnun etməyə çalışarsansa, bir o qədər çox qazanarsan. Ticarətdə kim Allahın rizasını və müştərinin məmnunluğunu ön planda tutarsa, o adam həm dünyada, həm də axirətdə qazanc əldə etmiş olar. Müştəri öz ehtiyacını təmin etmək üçün gəlir, ona ən yüksək səviyyədə xidmət etmək borcumuzdur. İlk növbədə qazancı deyil, müştərini düşünmək lazımdır. Bu işdə ən əsas məsələ insana xidmət anlayışıdır. Müştəriyə sadəcə mal satmaq deyil, onun duasını da almaq lazımdır. Müştərimizin bizə könüllü verdiyi bir manat könülsüz verdiyi iki manatdan daha faydalıdır.

İrfan: *Ticarətin təhlükəli tərəfləri nələrdir?*

Rövşən Nəsir: Ticarətdə hər an nəfsin və şeytanın aldatması mümkündür. Bir tərəfdən şeytan vəsvəsə edir ki, bu malı olduğundan çox baha de, qüsurunu gizlət və s. Daim seçimlər qarşısındasan. Bir anlıq Allahdan qafil qalmaq insanı həlaka sürükləyə bilər.

İrfan: Təşəkkür edirik!

İqtisadçı Ruslan Atakişiyev:
MÜSƏLMAN İŞ HƏYATINDA NÜMUNƏ OLMALIDIR

İrfan: *İlk növbədə özünüz haqda məlumat verərdiniz mümkünsə.*

Ruslan Atakişiyev: 1977-ci ildə Mingəçevir şəhərində anadan olmuşam. 1994-cü ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və Kredit fakültəsinə daxil olmuşam. 1998-2000-ci illərdə magistratura təhsili almışam. 2008-ci ildə dissertasiya müdafiə edərək iqtisadiyyat üzrə fəlsəfə doktoru dərəcəsinə layiq görülmüşəm. 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Univerisitetində fəaliyyətə başlamışam. Hal-hazırda orada və Qafqaz Universitetində təhsil verirəm. Eyni zamanda İqtisadi Resursların Öyrənilməsi ictimai birliyinin sədriyəm. 2009-cu ildən İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin prezidentiyəm. Vyana İnstitunun və İsveçrənin Beynəlxalq Münasibətlərin Araşdırılması İnstitutunun məzunuyam. Hazırda İsveçrənin KABİR Məzunlar Şurasının iqtisadiyyat bölməsinin koordinatoru vəzifəsində çalışıram.

İrfan: *Müsəlmanın iqtisadi həyatı necə olmalıdır?*

Ruslan Atakişiyev: İqtisadiyyat insanın yaşama tərzidir. İnsan ömrü iqtisadiyyatın içərisində davam edir. Təbii ki, iqtisadi həyatımızda ilk növbədə islami prinsiplərə riayət edilməlidir. Əldə etdiyimiz gəlirlərin halallığı əsas alınmalıdır. Əgər insan işində halal-harama riayət edərsə, o zaman onun pul qazanmaq üçün çalışması da ibadət sayılar. İlk məsələ budur. İqtisadi həyatla bağlı elə bir problem yoxdur ki, İslam hüququnda onun həlli olmasın. Bunu unutmamalıyıq. İkinci xüsus qazancımızın xərclənməsidir. Halal gəliri harama xərcləməklə, israf və s. kimi yollarla dağıtmaq da əslində günahdır. Ailə üzvlərinin xərcləri düzgün planlaşdırılmalıdır. Xərcləmələrdə nəfsani seçimlər etməməli, qənaətli olmalıyıq. Qazanmaq nə qədər mühümdürsə, xərcləmək də bir o qədər mühümdür.

İrfan: *Bugünkü iqtisadiyyatın başlıca problemləri nələrdir?*

Ruslan Atakişiyev: Bu gün qlobal səviyyədə müəyyən iqtisadi problemlər var:

qlobal maliyyə problemi, məhdud resusrslardan səmərəli istifadə məsələləri, resursların istifadəsi zamanı ətraf mühitə daha az ziyan vurmaq, gəlirlərin düzgün bölünməməsi, bunun da nəticəsində yoxsulluğun olması və s. Əslində bu kimi problemlərin əsasında mənəvi səbəblər dayanır. İslam dini sosial ədaləti əsas alır. Həmçinin dinimizdə insan amili ön planda tutulur. Bu gün isə biznesdə insanın daha çox iqtisadi varlıq kimi ələ alındığını görürük. İnsana sanki bir alət, vasitə kimi baxırlar. Halbuki Allah insanı ən şərəfli varlıq olaraq yaratmışdır. Bu gün tez-tez qlobal maliyyə probleminin gündəmə gəldiyini görürük. Bunun səbəbinin möhtəkirlik olduğu məlumdur. Hansı ki, İslam möhtəkirliyi qadağan edir. ABŞ birjasında bəzi şirkətlər aksiyalarını daha çox satmaq üçün öz maliyyə durumlarını olduğundan yüksək göstərmişlər və bunun nəticəsində iqtisadi böhran yaranmışdır. Dünyanın iqtisadi problemlərindən bir digəri şəffaflıq və dürüstlüyün qorunmaması, köpük iqtisadiyyatı dediyimiz şişirtmə rəqəmlərdir. Yüz minlik nağd pul şişirdilmə nəticəsində özündən beş dəfə, on dəfə artıq göstərilir. Reallığa gəldikdə isə biz yüz mini görürük, digər şişirdilmiş məbləği görmürük. İslam isə real ticarətin tərəfdarıdır. Digər bir misal verim: Dünya birjasında hələ portağal çıxmadan alış-verişi gerçəkləşdirilir. Halbuki bilinmir məhsul nə qədər olacaq, hava şəraiti və s. nəzərə alınmır. Nəticədə isə mənfi hallar yaşana bilir. İslamda isə Hz. Peyğəmbər malı görmədən satmağı qadağan edir. Yuxarıda qeyd etdiyimi kimi dünya ölkələri arasında gəlirlər düzgün bölünmür. Afrikada aclıq var, insanlar yeməyə heç nə tapmır, İngiltərədə isə hər ay çöl itləri üçün yüz minlərlə pul xərclənir. Bu pulla geri qalmış ölkələrdə nə qədər adamı doydurmaq olar.

İrfan: *Doğru buyurursunuz. Bəs bu kimi neqativ hallara səbəb olan əsas amil nədir sizcə?*

Ruslan Atakişiyev: Əlbəttə ki, Allaha, axirət gününə imanın zəif olması. Bəzi insanlar keçici dünyada daima yaşayacaqlarını düşündükləri üçün əllərindəki imkanları başqaları ilə paylaşmırlar. Hətta daha çox toplamağa çalışırlar. Məsələnin əsasında mənəvi aclıq yatır.

İrfan: *Dinimizdə olan zəkat və sədəqə ibadətlərinin iqtisadi inkişafdakı rolu nədir?*

Ruslan Atakişiyev: Bildiyimiz kimi sədəqə insanın Allah qarşısında sədaqətini göstərən amildir. Zəkat məcburi olsa da onun könüldən sevərək verilməsi mühümdür. Əslində bu institutlar iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Burada yardımlaşmaq, paylaşmaq var. Bugünkü iqtisadiyyatda vəhşi rəqabətin şahidi oluruqsa, İslam iqtisadiyyatı bizə yardımlaşmanı, insanlara dəstək olmağı təlqin edir. Sədəqə və zəkat insana stimul verir. Allah insana verdiyi sədəqənin qarşılığını dünyada və axirətdə qat-qat artıqlamasıyla verir. Zəkat və sədəqə vasitəsilə yoxsul və zənginlər arasında sanki bir körpü qurulmuş olur. Kasıbların varlılara həsəd aparmasının qarşısı alınır. Burada saymaqla bitməyəcək bir çox faydalarından da bəhs etmək mümkündür. Əgər hər bir müsəlman öz zəkatını layiqincə versə, cəmiyyətimizdə məcburiyyət qarşısında qalaraq bəzi işbazlardan yüksək faizlə borc alan yoxsul insanlar olmazdı.

İrfan: *İslam dəyərləri ilə müasir dövrün biznesi necə qurulmalıdır?*

Ruslan Atakişiyev: Burada bir neçə nüansa diqqət çəkmək istərdim. İslamda gəlir əldə etmək niyyəti sağlam olmalıdır. İşə başlayarkən niyyət mühümdür. Həmçinin öz mənafeyindən başqa heç nəyi düşünməmək qadağan edilmişdir. Müsəlman ətrafdakılara əminlik təlqin edən insan olmalıdır. Belə olduqda hər kəs düşünəcək ki, mən filan işi müsəlmanla görməliyəm, çünki onlar daha dürüst işləyirlər. Məqsədə çatmaq üçün hər yo-

Bugünkü iqtisadiyyatda vəhşi rəqabətin şahidi oluruqsa, İslam iqtisadiyyatı bizə yardımlaşmanı, insanlara dəstək olmağı təlqin edir. Sədəqə və zəkat insana stimul verir. Allah insana verdiyi sədəqənin qarşılığını dünyada və axirətdə qat-qat artıqlamasıyla verir. Zəkat və sədəqə vasitəsilə yoxsul və zənginlər arasında sanki bir körpü qurulmuş olur. Kasıbların varlılara həsəd aparmasının qarşısı alınır.

la baş vurmaq düzgün deyil. İnsan öz mənliyini, şərəfini alçaldacaq əməllərə əl atmamalıdır. Tərəzidə aldatmaq, malın keyfiyyətini gizlətmək kimi nöqsanlardan uzaq durmaq lazımdır. Təəssüf ki, tərəzidə aldatma məsələsi ilə tez-tez qarşılaşırıq. Reklamlarda malın olduğundan daha yaxşı göstərilməsi də başqa bir hiylədir. Müqavilə şərtlərinə riayət olunmalıdır. Müsəlman verdiyi sözdə durmalıdır.

İrfan: İslami bankçılığın rolunu necə qiymətləndirirsiniz?

Ruslan Atakişiyev: İslam bankçılığının əhəmiyyəti ondadır ki, real iqtisadiyyatın inkişafına təsir göstərir. Məsələn, qlobal maliyyə böhranı islami maliyyə sistemi ilə idarə olunan şirkətlərə o qədər də təsir etmədi. Bu sektor puldan pul qazanmağı düşünmür, əksinə, real iqtisadiyyata əsaslanır. Digər tərəfdən mudarabə kimi üsullarla kiçik və orta sahibkarların inkişafına təkan olur. İslami bankçılıqda borc alanla bərabər bank da qazanc əldə edir. Bir neçə faiz əvəzinə əldə olunan gəlirə şərik olmaq hər halda yüksək qiymətləndirilməlidir.

İrfan: *Ruslan müəllim, dəyərli fikirlərinizi bizimlə bölüşdüyünüz üçün təşəkkür edirik.*

Ruslan Atakişiyev: Mən də öz növbəmdə sizə təşəkükr edirəm.

İNDONEZİYA NECƏ İSLAMLAŞDI?

Könlü İslamın gözəlliklərilə yoğrulmuş, parça ticarəti ilə məşğul olan müsəlman bir tacir günlərin birində parçalarını bir gəmiyə yükləyərək İndoneziyaya gedir və orada məskunlaşaraq ticarətinə davam edir...

İşə gec gəldiyi bir gün satıcının satdığı mallardan çox yüksək qazanc əldə etdiyini görür və aralarında bu dialoq cərəyan edir:

- Hansı parçadan satdın?
- Bu parçadan.
- Neçəyə satdın?
- On axçaya.
- Necə yəni? Beş axçalıq parçanı on axçaya necə satdın? Alan adamın haqqına girdik. Görsən tanıyarsanmı həmin adamı?
- Bəli, tanıyaram!
- Elə isə dərhal get və o müştərini tapıb bura gətir. Vaxt itirmədən onunla halallaşmalıyam.

Dəzgahdar gedir və müştərini tapıb gətirir. Dükan sahibi müştərini qarşısında görən kimi ondan halallıq istəyir və satıcının aldığı pulun artığını da müştəriyə uzadır. Müştəri isə daha əvvəl heç qarşılaşmadığı bu gözəl rəftar qarşısında böyük bir heyrət içində qalır. Öz-özünə; "Haqqını halal et!" cümləsinin mənasını anlamağa çalışır.

Bu hadisə tezliklə dildən-dilə gəzir. Çox keçmədən də kralın qulağına çatır. Nəhayət, kral parça tacirini saraya çağırtdırır, İslam haqqında suallar verdikdən sonra müsəlman olur. Qısa bir müddət ərzində xalq da müsəlman olur.

Bu gün dünya dövlətləri arasında -təxminən 250 milyonluq- ən çox müsəlman əhalisinə sahib olan İndoneziyanın İslamı qəbul etməsindəki sirr bəlkə də yalnız bu beş axçalıq parça ticarətində sərgilənən İslam əxlaqıdır.

Dr. Əhməd NİYAZOV
ahniyazov@hotmail.com

KREDİTLƏ BAZARLIQ

İslami ticarət fəlsəfəsinin özünəməxsus xüsusiyyətləri və əxlaqi cəhəti var. Onun spesifik cəhətlərindən biri də alış-verişdə faiz/ribanın qadağan edilmiş olmasıdır. Qurani-Kərimdə bu haqda deyilir:

"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!) Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!"(Bəqərə, 2/278-279)

Faiz qarışan ticarət üsullarından biri də bəzi kreditli alış-verişlərdir. Ümumiyyətlə kredit **mal** və ya **pul**un müəyyən müddətə (borc olaraq) pul müqabilində alış-verişidir. Kreditlə pul alış-verişi, məsələn kreditorun 1000 manat alıb bir müddət sonra 1200 manat qaytarmaq kimi pul ilə pulun alış-verişi və ya ticarətidir. Bu, birbaşa faiz olub, haram hokmü daşıyır ki, bu haqda İslam alimləri həmfikirdirlər.

Pul ilə pulun alış-verişindəki artıqlıq faiz hesab edilir. Burada ayə və hədislərdən çıxan bəzi faiz əsasları olmaqla yanaşı, sərmayə sahibinin heç bir riskə girməyərək, əmək sərf etməyərək, zəhmətsiz gəlir əldə etməsi zülmkarlıq, kreditorun isə zəhmət çəkərək, (sərmayəsi batsa da əmlakından sataraq) nəyin bahasına başa gəlirsə-gəlsin, sərmayədən artıqlaması ilə ödəmə məcburiyyətində qalması ədalətə zidd bir davranış hesab edilmişdir.

Malın pul ilə kreditlə (nisyə və ya vədə ilə satışı) alış-verişinə gəlincə isə alim-

lər arasında ixtilaflı olsa da, müasir İslam alimləri də içində olmaqla uləmanın əksəriyyətinə görə belə bir alış-veriş İslama uyğundur. Onlar belə hesab edirlər ki, burada ayə və hədislərdən çıxan faiz əsasları olmadığına görə mal müqabilində (kreditlə) ödənilən artıq pul faiz deyil. Çünki yüz manata əldə edilən bir malı bazarda yüz iyirmi manata satan alverçi üçün 20 manatlıq əlavə necə ki, faiz deyil və halal qazancdır, eyni malı nisyə olaraq yüz altmış manata satan alverçi üçün də 60 manat faiz deyil, müddət səbəbilə daha çox qazancdır.

Digər cəhətdən nağd yüz manata satılan bir malı, məsələn, altı ay müddətinə yüz əlliyə satdığınız vaxt, bu "əlli" artıqlıq faiz deyil, vədə/müddət fərqidir. Nisyə alış-verişdə mal satılıb müqabilində, pul alındığı üçün bu, halal olan bir ticarət əqdi hesab edilmişdir. *(bax. www.hayrettinkaraman.net/yazi/hayat2/0173.htm)*

Həmçinin infilyasiyanın normal olduğu hallarda nisyə mal alıb borcunu vaxtında ödəməyənlər, ödəmə günündən etibarən meydana gələcək dəyər itkisini ödəməlidirlər. Çünki belə bir şəraitdə vaxt verərərk nisyə qiyməti müəyyən edənlər, pulun ödəmə gününə qədər məruz qalacağı dəyər itkisini nəzərdə tuturlar. (bax. http://www.suleymaniyevakfi.org/arastirmalar/islam-fikhi-acisindan-borclanmalarda-enflasyon-farki.html)

Nəticə olaraq İslamın ticarət anlayışında pul ilə pulun alış-verişi qadağan edilirkən, mal ilə pulun ticarətində ticarət əxlaqı daxilində hər cür alış-verişinə icazə verilmişdir. Pul ilə pulun ticarətində də işin qadağan edilən cəhəti eyni növ qymətli kağızların artıqlaması ilə qaytarmaq şərtilə satılması və ya borc verilməsidir. Əksinə, dəyər baxımından fərqli olan müxtəlif növ valyuta mübadilələri də mal ilə pulun alış-verişi kimidir.

Qeyd etmək lazımdır ki, ayə və hədislərdə keçən "faiz/riba" alış-verişi daha geniş mövzuları əhatə etsə də, bunun bir növü də borc verilən puldan istifadə etdiyi üçün borcludan (kreditordan) alınan əlavə məbləğdir. Yaxud nisyə müamilələrdən və borcdan meydana gələn faiz növüdür. Bu, eyni cins və ya eyni növ iki malın, ya da eyni sinfə daxil olan iki ayrı malın birbiri ilə nisyə olaraq mübadilə edilməsilə meydana gəlir. Məsələn, eyni pul vahidi olan manat alış-verişində verilən miqdarın eynisi alınmalıdır. Verilən miqdarın üstünə alınacaq hər miqdar faizdir.

Köhnəsi və təzəsi, növü və keyfiyyəti nə olarsa olsun, mal mübadiləsində də eyni miqdar alınmalıdır, yəni 1 ton taxıl ancaq 1 ton taxıl ilə dəyişdirilə bilər. Artığı faizdir.

Onu da qeyd etmək lazımdır ki, verilən borc müqabilində borcluya hər hansı bir şeyi şərt qoşmaq da faizdir. Məsələn, borclunun borcunu ödəyərkən bir də ziyafət şərti qoşulması əqdi faizə çevirər. Fiqh qaydalarında bu "**şərtli mənfəət faizdir**" deyə qeyd edilir ki, *(İbn Qudamə, əl-Muğni, 4/354; əl-Mövsili, əl-İxtiyar, 2/33.)* bunun əsası Həzrət Peyğəmbər əleyhissalamdan rəvayət edilən: "*Mənfəət güdərək verilən hər bir borc faizdir.*"(Suyuti, Camis-Sağir, 5/28.) hədisinə dayanır. Ancaq bu da var ki, bunun əksi "**şərtsiz mənfəət caizdir**" qaydası, yəni borclunun borcunu qaytardığı vaxt yaxşılığa qarşılıq bir şey (hədiyyə kimi) verməsi caizdir. Çünki borc verən bunu şərt qoşmamış və bundan xəbəri də yoxdur. Hərçənd ki, uləma kütləvi hal almasının qarşısını almaq üçün bunu da tövsiyə etmir. Məlumdur ki, bu vəziyyət adət halını alsa, borc verənin nəsə güman etməsinə səbəb ola bilər.

İslam ticarət əxlaqında faiz kimi müamilələr qadağan edilsə də, bunun əvəzində alternativ yollar təklif edilmiş, "**qarz**" əqdi, "**müdarabə**" və "**müşarəkə**" kimi yardımlaşmaya əsaslanan dayalı ticarət anlayışı ilə cəmiyyətdə həm də sosial məsuliyyəti aşılayan bir fəlsəfə gətirilmişdir.

İbrahim EROL
i_erol61@hotmail.com

İMAM ƏZƏM VƏ İŞ ƏXLAQI

İmam Əzəm Əbu Hənifə (rəh.a) ticarətlə məşğul olaraq dolanışığını təmin edirdi. Onun dürüstlüyü, comərdliyi, əmanətə riayəti və təqvası ticari həyatında da daim özünü göstərmişdir. İnsanlar onu ticarətdə Hz. Əbu Bəkrə (r.a) bənzədirdilər. Çünki o, bir malı satın alarkən, satdığı zamanki kimi əmanət qaydasına diqqət edər, möhtac satıcını istismar etməzdi.

Hafs b. Əbdürrəhmanla ortaqlıq edər, illik qazancının dörd min dirhəmdən çoxunu kasıblara paylayar, alimlərin, muhəddislərin və tələbələrinin bütün maddi ehtiyaclarını qarşılayar və təvazö ilə belə deyərdi: *"Bunları ehtiyacınız olan yerdə istifadə edin və Allaha şükür edin. Çünki bunlar gerçək mənada mənim deyil, sizin nəsibiniz olaraq Allah-Təalanın ehsan və kərəmindən mənim vasitəçiliyimlə sizə göndərdikləridir."*

Beləcə elm əhlini başqalarının minnəti altında qoymaz, diqqətlərini yalnızca elmə vermələrini təmin edərdi. Öz evinə də bol-bol xərcləyər, bir o qədər də yoxsullara sədəqə verərdi. Zənginlərə də hədiyyələr verərdi. Hər cümə günü savabını ata və anasına bağışlamaqla iyirmi qızıl paylayardı. Müştərisi kasıb olsa, malı öz qiymətin verər və ya hədiyyə edərdi.

Bu, onun halal ruzi qazanmasını təmin etdiyi kimi, ticari qazancını və tələbələrinin ehtiyaclarının qarşılanmasını, müstəqil bir elm məclisi qurmasını da təmin etdi. Əbu Yusifin pulunun bitdiyini söyləməsinə ehtiyac buraxmadan o, Əbu Yusifi çağırıb kömək edərdi. Həmçinin evlənmə çağına gəlib maddi imkanı olmayan tələbələrinin də evlənməsini təmin edərdi.

Bir dəfə bir qadın satmaq üçün ona bir ipək paltar gətirmişdi. O, qiymətini soruşdu. Qadın yüz dirhəm istədi. Əbu Hənifə malın dəyərinin yüz dirhəmdən çox etdiyini söylədi. Qadın hər dəfə yüz dirhəm artıraraq nəhayət dörd yüzə çıxdığında Əbu Hənifə malın dəyərinin bundan daha çox edəcəyini söylədi. Qadın: "Məni ələ salırsan?" –dedikdə isə, o: "Əsla, bir nəfər gə-

tirin mala qiymət qoysun"-dedi. Ticarətlə məşğul olan bir nəfər çağırdılar və o şəxs mala qiymət qoydu. Əbu Hənifə həmin malı beş yüz dirhəmə satın aldı. Bu hadisə o zamandan bəri xalq arasında danışılaraq günümüzə qədər ticarətdə dürüstlüyə dair bir zərbi-məsəl halına gəlmişdir.

İmam Əzəm bir gün yolda gedərkən onu görən bir nəfər üzünü ondan gizlədərək yolunu dəyişdi. O, dərhal həmin adamı yanına çağırıb: "Niyə yolunu dəyişdirdin?" –dedi. Həmin şəxs: "Sizə on min dirhəm borcum var. Uzun zamandır ki, ödəyə bilmədim və çox utandım", -dedi. İmam Əzəm: "Subhanallah, mən o pulu sənə hədiyyə etmişdim. Məni görüb sıxıldığın və utandığın üçün haqqını halal et!" -dedi.

Rəvayət edildiyinə görə İmam Əzəm Əbu Hənifə (rəh. a) ortağı Hafs bin Əbdürrəhmanı bir dəfə parça satmağa göndərərkən ona malda qüsur olduğunu bildirmiş və malı satanda bu qüsuru müştəriyə izah etməsini tapşırmışdı. Hafs bin Əbdürrəhman parçanı satmış, lakin müştəriyə malın qüsurlu olduğunu söyləməyi unutmuşdu. Həmçinin malı kimə satdığını da bilmirdi. Əbu Hənifə (rh. a) bunu öyrəndikdə həmin ticarətdən əldə edilən gəlirin hamısını sədəqə olaraq paylamışdır.

Əbu Hənifə (rh.a) bir tacir olaraq aşağıdakı dörd xislətə sahib idi ki, bunlar ictimai münasibətlərlə əlaqəlidir. Onu elm adamları arasında olduğu kimi, tacirlər arasında da üstün mərtəbəyə çıxaran bu xislətlər aşağıdakılardır:

Onun gözü tox və könlü zəngin idi. Könül və ruhları kasıb edən acgözlük onu əsla zəbt edə bilməmişdi. Müsəlman bir tacirin əsl zənginliyi könül zənginliyidir. Çünki Peyğəmbərimiz (s.ə.s): *"Zənginlik mal çoxluğu deyildir. Əsl zənginlik könül zənginliyidir."* -buyurmuşdur.

Əmanətə son dərəcədə riayət edər və özüylə əlaqədar olan hər işdə nəfsinə hakim olardı. Əmanətə sadiq olmaq həqiqi bir müsəlmanın sifətlərindən biridir. Çünki Peyğəmbərimiz müxtəlif hədislərində əmanətə xəyanət etməyin münafıqliyin bir əlaməti olduğunu söyləmişdir.

İllik qazancının dörd min dirhəmdən çoxunu kasıblara paylayar, alimlərin, muhəddislərin və tələbələrinin bütün maddi ehtiyaclarını qarşılayar və təvazö ilə belə deyərdi: "Bunları ehtiyacınız olan yerdə istifadə edin və Allaha şükür edin. Çünki bunlar gerçək mənada mənim deyil, sizin nəsibiniz olaraq Allah-Təalanın ehsan və kərəmindən mənim vasitəçiliyimlə sizə göndərdikləridir."

O, davamlı surətdə xoş xasiyyət və comərd olmağa çalışmışdır. Müsəlmanın düşüncəsində insanın özünə qalan əslində qazandığı deyil, infaq etdiyidir. Çünki infaq malı təmizləyər, insanın başına gələcək qəzalara və bəlalara da sanki bir qalxan olar. Həmçinin infak etmək ömrü bərəkətləndirər. Mömin olan hər kəs aylıq və ya illik qazancından mütləq infaq etməlidir.

Son dərəcə dindar olub yaxşı rəftarı ibadət sayardı. Ayrıca o, çox vaxt oruc tutar və gecələrini ibadətlə keçirər, yaxşı rəftarın da bir ibadət olduğunu söyləyərdi. İnsanlarla yaxşı rəftar etmək şübhəsiz ki, gözəl əxlaqın bir nəticəsidir. Peyğəmbərimizin hədislərinə görə isə qiyamət günündə ilahi tərəziyə qoyulacaq ən ağır şey gözəl əxlaq olacaq. Müsəlman bir tacir gözəl əxlaqıyla mütləq surətdə digərlərindən fərqli olmalıdır.

Bu gün əhalisinin sayına görə müsəlmanlar yaşayan ən böyük ölkə olan İndoneziya müsəlman tacirlərin keçmişdə oraya getməsi və oralarda müsəlman şəxsiyyəti ilə ticarət etmələri, sevilmələri və İslamı digərlərinə sevdirmələri sayəsində İslamla şərəflənmişdir.

"TÜSİAB"ın baş katibi Yasin Göral:

Azərbaycan iqtisadiyyatının sürətlə inkişafı sevindirici haldır

İrfan: TÜSİAB-ın Azərbaycandakı fəaliyyəti ilə bağlı açıqlama verərdiniz zəhmət olmasa?

Yasin Göral: Türkiyədən gəlib Azərbaycanda fəaliyyət göstərən iş adamlarının səyləri və zəhmətləri ilə 1994-cü ildə mərhum ümummilli lider Heydər Əliyevin xeyir-duasını alaraq qurulan bir cəmiyyətdir. O dövrdə TÜSAB Türkiyədən gələn iş adamlarının Azərbaycanda fəaliyyətlərini təmin etmək və Türkiyə-Azərbaycan arasındakı iqtisadi əlaqələrin möhkəmlənməsi üçün lazımi tədbirləri həyata keçirmək məqsədi ilə qurulmuşdur. Müəyyən zaman keçdikdən sonra öz fəaliyyət sahəmizdə bəzi dəyişikliklər edərək bu gün artıq fəaliyyətimizi xeyli genişləndirmişik. Bu gün artıq türk iş adamlarının Azərbaycana sərmayə qoyması ilə yanaşı, həmçinin azərbaycanlı iş adamlarının da Türkiyədə fəaliyyət göstərməsi, Azərbaycan malının Türkiyəyə, o cümlədən digər ölkələrə idxalı üçün müəyyən tədbirlər həyata keçiririk. Bu gün artıq TÜSİAB-ın istər Türkiyədə, istərsə də dünyanın müxtəlif ölkələrindəki tanınmış təşkilatlarla, şirkətlərlə əlaqələri var. Bu əlaqələrimiz vasitəsilə buradakı sahibkarların dünyanın bir çox ölkələrindəki həmkarları ilə görüşlərini təşkil edirik. Bu gün artıq Azərbaycan və Türkiyə qardaşlığından doğan enerjini üçüncü ölkələrdə də istifadə etməyə başlamışıq.

İrfan: Sizcə bir ölkənin iqtisadi göstəriciləri nələrdir?

Yasin Göral: Ümumi mənada ifadə etmək istəsək, iqtisadi kriteriyalar içərisində biriki əsas başlıq olaraq bunu deyə bilərəm ki, ilk növbədə ümumi daxili məhsulun qiymətidir. Bu rəqəm Azərbaycanda artıq kifayət qədər yüksək səviyyədədir. Bunun nəticəsi olaraq da adam başına düşən milli gəlir Azərbaycanda təxminən 8-9 min dollardır. Bu rəqəmin gələn illərdə 10 minə çatdırılması nəzərdə tutulmuşdur. Bu isə inkişaf etmiş ölkələr dediyimiz ölkələrin rəqəmlərinə yaxın olan göstəricilərdir. Bundan başqa iqtisadi göstəricilərdən bi-

ri də ölkənin xarici banklara olan borcudur. Azərbaycan bu baxımdan da çox müsbət iqtisadi göstəricilər əldə etmişdir. Azərbaycanın xarici borcu demək olar ki, yoxdur. Yəni bu rəqəmlər çox cüzi rəqəmlərdir. Digər bir iqtisadi göstərici isə dövlət fondlarındakı nağd puldur. Bu gün Azərbaycanın 40 milyard dollardan artıq Dövlət Neft Fondunda və Mərkəzi Bankda nağd rezervləri var. Bu rezervlər həm xarici valyuta olaraq, həm də artıq dünyadakı iqdisadi böhranın nəticəsində qəbul edilən doğru qərarla qızıl olaraq saxlanılır. Bütün bunlar bir ölkənin iqtisadi cəhətdən inkişaf etdiyinin bariz göstəriciləridir. Həmçinin dünyada bu gün iqtisadi inkişafın digər ölkələrdə mənfi bir, mənfi iki olaraq göstərildiyi halda, Azərbaycan bu böhrandan da üzü ağ çıxmışdır. Təbii ki, bu göstəricilər hər bir Azərbaycan vətəndaşını sevindirir.

İrfan: Bu gün Azərbaycandakı, ümumi mənada isə Türk dünyasındakı iqtisadi inkişaf sizi qane edirmi?

Yasin Göral: Bugünkü inkişaf bizi qane edir desəm, belə nəticə çıxar ki, artıq ediləcək heç bir iş yoxdur, hər şey son nöqtəyə çatmışdır. O zaman isə artıq bizim kimi cəmiyyətlərin işinə də ehtiyac qalmaz. Ancaq bizim məqsədimiz iqtisadi əlaqələri daha irəli səviyyəyə çıxarmaqdır. Doğrudur, bugünkü gün etibarı ilə baxdığımız zaman çox ciddi işlər görülmüşdür. Bü işlərin bünövrəsi Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvandan Türkiyəyə Ümid Körpüsünü açan mərhum ümummilli lider Heydər Əliyev olmuşdur. Həmçinin ulu öndərin ifadə etdiyi və bu gün bütün dünyanında o cür qəbul etdiyi Əsrin Müqaviləsi olan Bakı-Tiflis-Ceyhan boru kəməri, Bakı-Tiflis-Ərzurum təbii qaz boru kəməri, TANAP müqaviləsi, Bakı-Tiflis-Qars dəmir yolu layihəsi həm Azərbaycandakı, həm də ümumi mənada Türk dünyasındakı iqtisadi inkişafın göstəricilərdir. Bundan başqa türkdilli ölkələrin başçılarının bir yerə toplanması, bu təşkilatın baş katibliyinin Bakıda açılması, Türk dilli ölkələrin Parlamet Assambleyasının yaradılması da bu ölkələri həm iqtisadi, həm də siyasi baxımdan bir-birinə bağlayan dəyərlərdir. Təbii ki, bunlar kifayət deyil, bunlar bizim qarşımıza yeni hədəflər qoyur. Biz də iş adamları olaraq bu yolda inamla irəliləməyə çalışırıq.

İrfan: Kənardan baxdıqda işlərinizin xeyli ağır olduğu görsənir. Bu işlər sizi yormur ki?

Yasin Göral: Heç bir bağban meyvəsini toplamaq üçün bir ağacı becərməz. Bağbanın vəzifəsi ağaca qulluq etməkdir. Acac bar verərsə, meyvəsini yığar və ondan da başqa bir zövq alar. Ancaq əsas olan bağbanın o ağacı yetişdirməsidir. Doğrudur, bəlkə də iş dünyasına xidmət etmək yorucu və müəyyən dərəcədə stresli bir işdir. Ancaq bir az əvvəl də ifadə etdiyim kimi bizə göstərilən hədəflərə çatmaq üçün böyük bir çalışma əzmi içindəyik. Biz burada nəticəni daha tez bir zamanda görürük və bu nəticələr göründüyü zaman bunlar bizim cəmiyyətdəki dəyərli dostlarımıza böyük enerji verir. Gördüyümüz işlər nə qədər zəhmət tələb etsə də, bu enerji sayəsində də biz gördüyümüz işlərdən yorulmuruq. Sözün açığı, bu işlər könül işidir. Azərbaycan bizim könüldən sevdiyimiz, özümüzü yad bir yerdə hiss etmədiyimiz, öz vətənimizdəki kimi hiss etdiyimiz, sevincini sevincimiz, kədərini kədərimiz bildiyimiz bir yerdir, canımızın bir parçasıdır. Bu baxımdan da burada xidmət etməkdən böyük bir zövq alırıq. Buna görə də yorulmaq bilmədən çalışırıq.

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com

Mənəvi Ticarət Mövsümü

Müsəlmanlar tərəfindən "Üç Aylar" olaraq adlandırılan yeni bir mənəvi mövsümün astanasındayıq. Sarsılan mənəvi dünyamızı təmir edəcəyimiz, qəlbi səviyyəmizi ucaldacağımız, həyatımızı yenidən gözdən keçirməyimizə vəsilə olacaq mənəvi bir iqlim…

Orucla, tövbəylə, namazla, Quranla, xeyir-həsənatla dolu bir dönəm…

Səma qapılarının açıldığı, duaların qəbul edildiyi, istiğfar və tövbələrlə günahların bağışlandığı günlər, gecələr…

Həyat sərmayəsinin əldən çıxdığını unutmayıb, bir daha gələcək hüzur mövsümünə qovuşub-qovuşmayacağımızın ümid və əndişəsini hər zaman canlı tutaraq axirət hazırlığına davam edildiyi bir mövsüm..

Bu aylarda bir-birindən qiymətli gecələr var: Rəqaib, Merac, Bərat, Qədr gecələri...

Üç aylar mənəvi ticarət baxımından çox bərəkətli, qazanclı və savablı bir mövsümdür. Bu mövsümdə edəcəyimiz mənəvi çalışmalar daxili aləmimizdə çox fərqli üfüqlər açar.

İldə bir dəfə açılan mənəvi ticarət yarmarkasıdır Üç Aylar…

Rəcəb, Şaban, Ramazan..

İl ağac kimidir. Rəcəb ayı ağacın yarpaq açdığı, Şaban ayı bar gətirdiyi, Ramazan ayı isə meyvəsinin yığıldığı zaman kimidir. Rəcəb toxum əkmə, Şaban sulama, Ramazan isə biçmə ayıdır. Rəcəb hörmət, Şaban xidmət, Ramazan isə nemət ayıdır.

Rəcəb ayının dəyərləndirilməsi:

Ənəs bin Malik (r.a) Rəsulullah (s.ə.s)-in Rəcəb ayına qovuşduğu zaman belə dua etdiyini xəbər verir: *"Allahım! Rəcəb və Şabanı bizə mübarək qıl və bizi Ramazana qovuşdur"*. (Əhməd b. Hənbəl,1/259)

İl ağac kimidir. Rəcəb ayı ağacın yarpaq açdığı, Şaban ayı bar gətirdiyi, Ramazan ayı isə meyvəsinin yığıldığı zaman kimidir. Rəcəb toxum əkmə, Şaban sulama, Ramazan isə biçmə ayıdır. Rəcəb hörmət, Şaban xidmət, Ramazan isə nemət ayıdır.



Əziz Peyğəmbərimiz (s.ə.s) bu ayda oruc tutmamızı, yoxsulların dərdləriylə digər vaxtlardakından daha çox maraqlanmağımızı, xeyirli əməllərin sayını artırmağı tövsiyə etmiş, belə edildiyi zaman böyük əcr qazanılacağını müjdələmişdir: *"Bir adam Rəcəbin birinci gününü oruclu keçirərsə, ona bir ay oruc tutmuş kimi savab verilər. Yeddi gün oruc tutarsa, cəhənnəmin qapıları üzünə bağlanar. Səkkiz gün oruc tutarsa, cənnətin səkkiz qapıları onun üçün açılar. On gün oruc tutarsa, Allah-Təala günahlarını həsənata çevirər. On səkkiz gün oruc tutarsa, səmadan bir carçı: "Keçmiş günahların bağışlandı. Yaxşı əməllərinə davam et!",- deyə səslənər."* (Təbərani)

Rəqaib Gecəsi

Rəcəb ayının ilk cümə gecəsi mübarək Rəqaib gecəsidir. Bəzi alimlərin açıqlamalarına görə Peyğəmbərimiz bu gecə bir çox ilahi lütflərə qovuşduğuna görə, Uca Allaha şükür məqsədilə namaz qılmışdır. Bu gecə duaların qəbul edildiyi müjdələnən nadir gecələrdəndir.

Merac Gecəsi

Rəcəb ayının 27-ci gecəsi də mübarək Merac gecəsidir. İsra və Merac hadisəsinin meydana gəldiyi bu gecəni ibadətlərlə, gündüzünü də orucla keçirmək xoş görülmüşdür.

Şaban ayı və ehyası:

Hz. Aişə (r.anhə) anamız belə buyurur: "...Şaban ayında oruc tutmaq Ona daha xoş gələrdi. Mən:

"Şabanda sənin (çox) oruc tutduğunu görürəm. (Bunun hikməti nədir?)" -deyə soruşdum. Rəsulullah (s.ə.s):

"Ya Aişə! Bir il içərisində öləcək kəslərin adları bu ayda (yaşayanların) dəftərindən silinib Əzrayıla (ə.s) verilir. Mən də adımın oruclu olduğum halda dəftərdən silinib (digər dəftərə yazılmasını) arzulayıram",- buyurdu. (Gunyə 1/227).

Bu ayda mənasını düşünərək Quran oxumalı, oruc tutmalı, Peyğəmbərimizə salavatlar gətirməliyik. Mallarımızın zəkatını Ramazanda tutacaqları oruca qüvvət və dəstək olması üçün yoxsullara bu ayda vermək gözəl olar.

Bərat Gecəsi:

Şaban ayının 15-ci gecəsi Bərat gecəsidir. Bu gecə Qədr gecəsi kimi çox qiymətlidir. Fərq buradadır ki, Bərat gecəsinin günü məlumdur, Qədr gecəsinin isə Ramazının hansı gecəsində olduğu gizlənmişdir.

Bərat gecəsinə məxsus beş xüsus var:

1) Hər mühüm iş o gecə ayırd edilir.
2) O gecədəki ibadətin fəziləti böyükdür.
3) Rəhməti-ilahiyyənin coşub-daşdığı bir gecədir.
4) Məğfirət gecəsidir.
5) O gecə Rəsulullah (s.ə.s)-ə şəfaət haqqının hamısı verilmişdir. (Qurani-Hakim, Məali-Kərim, H. Zantay, c.3, s..55)

Bərat gecəsinin də namaz qılmaqla, dua, tövbə-istiğfar, zikir, Quran-Kərim oxumaq, Peyğəmbərimizə salavat gətirmək kimi gözəl ibadətlərlə keçirilməsi xoş görülmüşdür.

Ramazan ayı və dəyərləndirilməsi:

Ramazanı-Şərif Qurani-Kərimin nazil olmağa başladığı, cənnət qapılarının açılıb cəhənnəm qapılarının qapandığı, şeytanların zəncirə vurulduğu, içində Qədr gecəsi kimi min aydan xeyirli bir gecənin olduğu, əvvəli rəhmət, ortası məğfirət, sonu da cəhənnəm əzabından azad edilmə ayıdır. Rəsuli-Əkrəm (s.ə.s): *"Əgər bəndələr Ramazan ayındakı fəzilətləri bilmiş olsaydılar, bütün ilin Ramazan olmasını təmənni edərdilər"* - deyə buyurur. (Beyhəqi).

Bilindiyi kimi Ramazan oruc ayıdır, təravih ayıdır. Məscidlərin möminlərlə dolub-daşdığı, mənəvi alış-veriş ayıdır. İnsanlığımızı, müsəlmanlığımızı, uzaq qaldığımız Rəbbimizi xatırlama ayıdır. Uca Yaradanımıza sığınma ayıdır. Bu ayda Qurani-Kərim əllərdə və könüllərdə gəzər, müqabilələr və xətmlər oxunar. Uşaqlar atalarının əllərindən tutaraq məscidlərə gedərlər, dini həyatın ilk zövqünü yaşayarlar. Mələklər yer üzünə ziyarətə gələrlər. Bu qədər feyzi Ramazani-Şərifi kəlmələrlə anlatmaq mümkün deyil. Ona görə biz də Rəsulullah (s.ə.s) kimi dua edək: ***"Allahım! Rəcəb və Şabanı bizə mübarək qıl və bizi Ramazana qovuşdur!"***

Məqalənin hazırlanmasında Yusuf Demireşikin yazısından istifadə edilmişdir

Mübariz ƏLİOĞLU

HAQQA DÖNMÜŞ QƏLBLƏ

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır." (əl-Hucurat, 13)

Cənnətdə müttəqilər üçün yaxın bir yerə gətiriləcəkdir. (Onlara deyiləcəkdir:) "Bu, vəd olunduğunuz (Cənnətdir). O, hər bir (tövbə edib Allaha tərəf) qayıdan, (nəfsini haramdan, özünü günahdan) qoruyan; Rəhmandan (Onu) görmədən qorxan və (Rəbbinin hüzuruna) haqqa dönmüş qəlblə gələn bəndə üçündür!" (Qaf 31-33)

Nəfəs alıb-verdiyimiz imtahan dünyasının tələblərilə qarşı-qarşıya durmaq məcburiyyətində olan insan övladı bu dünyanın cazibəsinə aldanaraq onunla çiyin-çiyinə, sarılma iştahası ilə qol-boyun olaraq öz fani, lakin qiymətli vaxtını hədər etməkdə davam edir. Uca Rəbbimizin buyurduğu qulluq və davranış ədəbinin məntiqinə varmadan sürülən və Rəbbimizə qarşı olan məsuliyyət duyğusuna ciddi zərbə vuran bu həyatın yalnız bir adı vardır: Dünya, mala-mülkə, şan və şöhrətə, ən əsası mənliyin ucaldılmasına dönmüş ölü bir qəlblə həyat sürmək. Təbidir ki, uzun-uzadı araşdırmalara ehtiyac olmadan belə bu həyatın hansı faciəvi sonluqla yekunlaşacağını bilməmək mümkün deyil. Bu həyata mənlik pəncərəsindən baxma sərsəmliyindən qurtulma çarəsi Rəsulullahın, onun şanlı əshabının və Allah (c.c) dostlarının ömür səhifələrindən son nəfəsimizə kimi bizə ünvanlanan Haqqa dönüş yollarına istiqamət almamızdadır. Qəlblərini əbədi olaraq Haqqa çevirmiş olanların həyat hekayələrini dinləyərkən ilk növbədə onların Qurani-Kərimə olan ülvi münasibəti gözlər önünə gəlir. İslam aləminin mötəbər simalarından olan Hz. Osmanın Rəbbinə qulluq salnaməsi bu qənaətin səhihliyini ifadə edir. Rəvayətə görə Hz. Osman bir rükətdə Qurani-Kərimi xətm edərdi. Hətta gecənin hamısını Quran oxuyaraq ehya etdiyi də söylənməkdədir. Təbiidir ki, bu qiraətin eyni zamanda əyani olaraq yanaşılan bir tərəfi də var idi. Hz. Osmanın həya və nəzakət libasına bürünərək Rəbbinə qulluq mükəlləfiyyətini Haqqa dönmüş bir qəlb aləmi ilə sürdürməsi Rəsulullahın mübarək nəzərlərindən qaçmamışdır: *"Biz Osman*

bin Affanın Allah qatında Xəlil və Kərim olan atamız İbrahimə (ə.s) bənzədirik",- söyləyən Rəsullulahın Hz. Osmana verdiyi qiymət necə də ali idi. Qurani-Kərimdə İbrahim (ə.s)-ın dilindən səslənən ayələrin insanı əbədi və dönməz olaraq Rəbbinə bağlayan ecazkar təbiəti doğrudan da qəlbləri sönmək bilməyən bir qulluq həyəcanına dəvət edir: **"Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir. Məni öldürəcək, sonra (yenidən) dirildəcək Odur. Və qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur! Ey Rəbbim! Mənə hikmət (peyğəmbərlik, elm) bəxş et və məni (Sənin rizanı qazanmış) salehlərlə (yaxşılar zümrəsinə) qovuşdur!"** (əş-Şüəra, 78-83).

Sevə-sevə oxuduğu Quran ayələri Rəsullahın tərbiyəsi ışığında Hz. Osmannın qəlbində mələklərin həya edəcəyi bir qulluq ruhunu inşa etmişdi. Artıq İlahi kəlamla qırılmaz rabitə halında mövcudluğunu zəfərlə sürdürən bu qəlbin sahibi ummətə unvanlanan ifadələrində bunları söyləyirdi: "Allaha (c.c) baxmadan, yəni Quran oxumadan bir gün və ya bir gecə kecirməkdən əsla xoşlanmaram. Əgər qəlbləriniz təmizlənmiş olsaydı, Allahın kəlamina doya bilməzdiniz". "Əgər qəlbləriniz təmizlənmiş olsaydı" ifadəsinin altında insan təbiətini Rəbbinə bağlama əzmi ilə aparılan böyük bir nəfs mübarizəsi yatmaqdadır. Bəli, nəfsi və qəlbi təmizliyi əldə etməyincə insanın Qurani-Kərimin məna dərinliyinə nüfuzu olduqca çətindir. Əzəli və əbədi hökləri özündə birləşdirən ilahi istək və qanunların toplusu olan Qurani-Kərimin həqiqət nuru ilə Hz. Osman kimi qidalanmaq, ona haqqı ilə bağlanmaq Allahı əhatəli şəkildə zikr etmək surəti ilə əldə ediləcək bir bacarıqdır. İnsanlığa əbədi səadətin qapılarını aralayan, qəlb diriliyinin əldə edilməsi üçün Haqqa dönüş və qəlbin təmizlənərək ilahi mərifətə yüksəliş pillələrini bizlərə izah edən Allah dostlarının Muhammməd ümmətinə yardımı necə də yerindədir. Son dövrün böyük alimlərindən olan Mahmud Sami Ramazanoğlu belə buyurur:

"Qul zikrullah ilə günahlardan arınar. Nəfsin təmizlənməsinə də ancaq zikrullah ilə nail olmaq mümkündür. Qəlbin təmizlənməsinin yeganə vasitəsi də zikrullaha çoxlu davam etməkdədir. Zikrullah ilə qul Allaha ibadət etməyə qüvvət qazanar, şeytanın hiylə və tələlərindən qurtular. Ağıllı insan Allahı çox zikr etməlidir. Çünki zikr iç dünyanın təmizlənməsinə səbəb olduğu kimi qəlbin cilalanmasına da yardım edər. Həqiqi həayat sahibi ancaq qəlbi diri olan kimsədir. Çünki qəlb Beytullahdır. Orada Allah məhəbbəti və zikri yoxsa, o qəlb ölüdür".

Hz. Osman xəlifəlik məsuliyyətinin ağırlığına baxmayaraq ilahi hüdudlara riayət yarışında olduqca dəqiq idi. Valilərə ünvanlanmış çıxışında onun bu yoldakı qətiyyətini sezmək mümkündür: "Fikirlərini dinlədim. Hər işin giriləcək bir qapısı var. Qapalı qapı açılacaq və bu ümmət haqqında qorxulacaq şey meydana gələcək. Allah müəyyən etdiyi hüdudlardan xaricə çıxmayaq ki, o qapı açılınca kimsənin mənim əleyhimdə dəlil olaraq bir sözü olmasın. Allah bilir ki, insanları xeyrə nail etməkdə qüsur etmiş deyiləm. Fitnə dəyirmanı dönür. Fitnə qapısı açılmadan Osman ölərsə, nə gözəl. Müsəlmanlara təskinlik və haqlarını verməyə çalışın".

Artıq fitnə əlamətlərinin ətrafı bürüdüyü gərgin anlarda belə Rəbbinə yönəlmiş bu mübarək qəlbin sahibi olan Hz. Osman şəhidliyi dəyərini anlamaqda aciz olduğumuz möhtəşəm bir rəhmani mükafat olaraq qəbul etməyə hazır idi:

"(Ey möminlər!) Əgər onlar da siz inandığınız kimi (Allaha) inanırlarsa, şübhəsiz ki, doğru yolu taparlar. Yox, əgər (imandan) üz döndərərlərsə, (sizə qarşı) ədavət bəsləmiş olarlar. (Ya Rəsulum! Belə olduqda sən onların düşmənçiliyindən qorxma!) Allah sənə (tezliklə sənin intiqamını) onlardan (almağa) kifayət edər. O, (hər şeyi) eşidəndir, biləndir." (əl-Bəqərə-137)

Rüfət ŞİRİNOV

“ÜÇ AY”LIQ ÖMÜR

Zənginləşmək üçün demək olar ki, bütün vasitələrdən istifadə edildiyi və hər şeyin mübah sayıldığı günümüzdə insanların mənəvi zənginliyi əldə etmək üçün kifayət qədər səy göstərdiklərini söyləmək çox çətindir. Dini ayinlər barəsindəki məsnədsiz və lüzumsuz mübahisələrin də insanımızı bəzi dəyərlərdən uzaqlaşdırdığını təəssüf hissi ilə müşahidə edirik. Bu mübahisələrə toxunmaq istəmirik. Sadəcə olaraq şəninə və dəyərinə layiqli şəkildə dəyər verilməyən və ehya edilməyən üç aylara diqqət çəkmək istəyirik bu yazımızda.

İslam dini mənəvi iqlimdən uzaqlaşmamaq və adiləşən həyatımıza mənəvi canlılıq və hüzur qatmaq üçün bəzi ay, həftə və günlərə özəl dəyər vermişdir. Bunlar bayram günləri və gecələri, Cümə gecələri, üç aylardakı (Rəcəb, Şaban və Ramazan ayları) bəzi gecələrdir. Tarix boyunca İslam mədəniyyətində bu aylara çox əhəmiyyət verilmiş və mənəvi iqlimdən qopmamaq üçün ibadətlər edilmiş, oruclar tutulmuş, qohum-əqrəba ziyarət edilmiş və İslam qardaşlığı ən zirvə nöqtədə yaşanmışdır. Bu aylar bağışlanma vəsiləsi kimi qəbul edilmişdir. Həzrət Peyğəmbərin “Hər bir Adəm oğlu xəta edəndir. Xəta edənlərin ən xeyirlisi tövbə edəndir” hədisi daha çox bu aylarada öz əksini tapmışdır.

Bu ayları fürsət bilərək hər bir müsəlman nəfs müsahibəsi etməlidir. Həzrət Ömərin “Hesaba çəkilmədən özünüzü hesaba çəkin” tövsiyəsinə qulaq asaq bu aylarda. Bu aylaradakı mübarək gecələrin hər biri bizim üçün fürsətdir. Bu dünyadakı fürsətləri dəyərləndirməyənlər əlbəttə ki, bir gün peşmançılıqla üzləşəcəkdir. Odur ki, günlərimizi oruc və ibadətlərlə ehya edək. Ramazan ayına mənəvi hazırlıq görək. Rəcəb ayı toxum səpmə ayıdır.

Şaban ayı sulama ayıdır. Ramazan ayı isə məhsul toplama ayıdır. Məhsulumuzun keyfiyyəti ona göstərilən qayğıya bağlıdır. Həzrət Peyğəmbərin bu aylarda hər namazdan sonra "Allahummə bərik lənə fi Rəcəbə və Şaban və bəlliğna Ramazan" (Allahım bizə Rəcəb və Şaban aylarını bərəkətli qıl və bizi Ramazana çatdır) duası bu qayğının göstəricisidir. Sadəcə bu dua üç ayların önəmini göstərmək üçün kifayət edər.

Hər bir insanın əsil vəzifəsi dünya və axirətini qurtarmağa çalışmaqdır. Ömür su kimi axıb gedir. Heç kim bunun fərqində deyil. Sanki üç aylar bizim qapımızı çalaraq yuxudan oyandırmağa çalışır. Beləliklə bir ilin daha keçdiyini anlayırıq. Bu səsə qulaq verənə eşq olsun.

İslam dini tətbiqata dəyər verən dindir. Odur ki, heç bir gün və gecənin tədbir və mərasimə ehtiyacı yoxdur. Mərasimlər o günlərə dəyər qatmaz. Mərasimlərlə vaxt keçirmək əvəzinə İslamı yenidən diriltməyə səy göstərmək lazımdır. Hər bir fərd mübarək gün və gecələrini ehya etdiyi qədər fayda əldə edər.

Əlbəttə ki, müsəlman sadəcə bu gün və aylarda deyil, bütün günlərini aylarını Rəbbi ilə bərabər keçirməli, onun razılığına nail olmaq üçün çalışmalıdır. Ancaq bəzi günlər var ki, bunlara özəl dəyər verilmişdir.

Üzümüzə gələn bu mübarək üç aylardakı mübarək gecələrə də təmas etmək yerinə düşərdi.

Peyğəmbər əleyhissalamın Allahla görüşdüyü Merac hadisəsi Rəcəb ayında baş tutmuşdur. İslam alimlərindən Ləknəvi Rəcəb ayının 27-ci gecəsi olaraq qəbul edilən Merac gecəsini çox ibadət edərək ehya etmənin müstəhab oluduğunu ifadə etmişdir. Həmçinin Ramazan ayına hazırlıq bu aydan etibarən başlayır. Yuxarıda qeyd etdiyimz dua bu aydan etibarən oxunmağa başlanır.

İslam dini mənəvi iqlimdən uzaqlaşmamaq və adiləşən həyatımıza mənəvi canlılıq və hüzur qatmaq üçün bəzi ay, həftə və günlərə özəl dəyər vermişdir. Bunlar bayram günləri və gecələri, Cümə gecələri, üç aylardakı (Rəcəb, Şaban və Ramazan ayları) bəzi gecələrdir.

Şaban ayının on beşinci gecesi Bərat gecəsidir. Həzrət Peyğəmbər bu gecənin önəminə belə işarə etmişdir: "Allah-Təala rəhmətiylə Şaban ayının on beşinci gecəsi dünya səmasına təcəlla edər və Kəlb qəbiləsinin qoyunlarının tüklərinin sayısından çox insanı bağışlayar. (Tirmizi, Savm 8). Alim Ləknəvi "Hər kəs istərsə bu gecədə namaz qılar, istərsə digər ibadətlərlə məşğul ola bilər. Nə qədər və necə qılınacağı hər kəsin istəyinə həvalə edilib. Ancaq bu ibadət şəkli Peyğəmbərin qadağan edib çəkindirdiyi şəkildə olmamalıdır",- deyərək ibadətin mahiyyətinə diqqət cəlb etmişdir.

Min aydan daha xeyirli olan Qədr gecəsi Ramazan ayındadır. Bu gündə edilən bütün səmimi dualar Allah dərgahında qəbul ediləcəkdir.

İnşallah bu mübarək aylar hər birimiz üçün bağışlanma və dinimizi özünə uyğun şəkildə tənzimləmə vəsiləsi olar. Bu üç aylarda yaşadığımız mənəvi iqlimi bütün həyatımıza daşıma vəsiləsi olar. Hər ay bu aylardakı mənəviyyat ilə yaşama, hər gün bu aylardakı mübarək günlər kimi yaşama və bütün ömrümüzü də bu aylardakı hüzur və mənəviyyatla yaşama təmmənnası ilə...

Fuad QULİYEV
fuadguliyev@hotmail.com

BİR AYƏ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

“O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırar. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən (qiyamət günündən) qorxarlar”.

Nur surəsi, 37

İslamda ticarət əxlaqına son dərəcə əhəmiyyət verilmiş, və bu işlə məşğul olan hər bir müsəlmanın gündəlik həyatında ibadətinə maneə təşkil etməməsi vurğulanmışdır. Yuxarıda keçən ayədə məhz bu həsasslığa diqqət çəkilir. Ayeyi-kərimənin nazil olması ilə əlaqəli bəzi rəvayətlər qeyd olunur:

Abdullah ibn Ömərdən gələn rəvayətə görə o, bir gün bazarda dolaşarkən azan oxunur, dükan sahibləri dərhal dükanlarını bağlayaraq Məscidi-Nəbiyə gedirlər. İbn Ömərə görə məhz bu ayə azan oxunan kimi dükanlarını bağlayıb məscidə gedən iş sahibləri haqqında nazil olmuşdur və onların bu həssas davranışları ayə ilə təqdirəlayiq görülmüşdür.

* Hz. Peyğəmbər (s.ə.s) dövründə iki müsəlman vardı. Bunlardan biri tacir, digər isə ticarət məqsədi ilə qılınc düzəldən usta dəmirçi idi. Tacir olan azanı eşidən kimi tərəzi əlində olsa belə onu dərhal yerə qoyar, heç toxunmadan o vəziyyətdə qoyub dərhal Məscidi-Nəbiyə gedərmiş. Dəmirçi olan isə çəkic zindanın üzərində isə olduğu kimi qoyar, əgər zindan üzərindəki başqa bir qılınca vurulması üçün qaldırmışsa, arxa tərəfinə atar və vaxt itirmədən Məscidi-Nəbiyə gedərmiş. Məhz bu iki müsəlmana və yaxud onlara bənzəyənlərə bir tərif məqsədiylə Allah-Təala bu ayəni endirmişdir.

* Digər bir rəvayətə əsasən isə bu ayə Suffə əshabı haqqında nazil olmuşdur.

İnsanların əksəriyyəti müvəqqəti olan imtahan dünyasında ticarət, sənət, əyləncə və s. işlərinə qərq olaraq Allahı unudur, namazları vaxtında qılmır, mala olan həvəs və arzuları səbəbilə zəkatdan boyun qaçırdır, yaxud əskik verir. Belə şəxslər bu ünsürlərin hamısının bir imtahan üçün verildiyini unudan, sərvət və nemət imtahanından keçə bilməyən qafillərdir. Allahın nümunə göstərdiyi, tərifləyi qulları isə dünya-axirət müvazinətini düzgün tənzim edənlər, əbədi olanı fani olana, dəyərlini dəyərsizə dəyişməyənlərdir.

Bu vəsfdə ticarət əhli olanlar bir başqa ayədə buyurulduğu kimi “ticarətən lən təbur” (əsla zərərə məruz qalmayan bir qazanc) sirrinə hakim olanlar, yəni həqiqi ticarətdən pay alanlardır.

Qazanc və mənfəət gətirməsi yönü ilə insanı daha çox məşğul edən və əldə etdiyi qazancı görüncə də daha çox həvəslənməsinə, tədricən də Allahı zikrə mane olmağa və ya ikinci plana düşməsinə səbəb ola bilən ticarət müsəlmanın məhvinə yox qurtuluşuna vəsilə olmalıdır. Məsələn, əldə olunan qazancları möhkəm bir yerdə saxlamaq əvəzinə sədəqə, zəkat, xeyriyyəçilik kimi işlərə xərcləmək və ya bir yetimin qarnını doyurmaq, bəlkə bir cüt ayaqqabı ilə sevindirmək həm o insanın daxili aləmində, həm də cəmiyyət içərisində nə kimi nəticələr doğuracağını görmək üçün “sınaqdan keçirməyə” dəyər...

Səfa MURADOV
sefamuradov@gmail.com

BİR HƏDİS

عَنِ الْمِقْدَامِ بْنِ مَعْدِيكَرِبَ الزُّبَيْدِيِّ، عَنْ رَسُولِ اللَّهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، قَالَ: مَا كَسَبَ الرَّجُلُ كَسْبًا أَطْيَبَ مِنْ عَمَلِ يَدِهِ، وَمَا أَنْفَقَ الرَّجُلُ عَلَى نَفْسِهِ وَأَهْلِهِ وَوَلَدِهِ وَخَادِمِهِ، فَهُوَ صَدَقَةٌ

Miqdam ibn Mədikərib əz-Zəbididən (r.a) rəvayət olunduğuna görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: ***"İnsan əlinin zəhmətiylə qazandığından daha təmiz bir qazanc əldə edə bilməz. İnsanın özü, ailəsi, uşağı və xidmətçisi üçün xərclədikləri onun üçün sədəqədir".*** (Əbu Davud, İcarə, 43; Tirmizi, Əhkam, 22)

İnsanın başqalarına möhtac olmadan əlinin zəhməti, alnının təriylə əldə etdiyi gəlir ən təmiz və ən halal qazanclardan sayılır. Hədisimizin mənasına yaxın olan başqa bir rəvayətdə "*Heç kim əlinin qazancından daha təmiz bir yemək yeməmişdir*" (Buxari, Büyu, 15) – buyurulmaqla, insanın əlinin zəhməti, alnının təriylə əldə etdiyi gəlirin daha təmiz və halal olduğu vurğulanmışdır. Rəsulullah (s.ə.s) bir hədisi-şərifdə insanın dilənçilik edərək öz tələbatını qarşılamasını xoş qarşılamamışdır. Allah Rəsulu (s.ə.s) belə buyurur: "*Sizin iplərinizi alaraq dağa gedib bir şələ odun yığıb gətirib satmağınız, Allahın sizi başıaşağılıqdan qoruması və versələr də verməsələr də insanlardan nə isə dilənməyinizdən daha yaxşıdır*". (Buxari, Zəkat, 50) Qurani-Kərimdə də namus, iffət və şərəfləri səbəbiylə insanlara əl açıb dilənməkdən həya edən kasıblar zümrəsi tərifləmişdir. Ayədə Allah-Təala belə buyurur: **"Sədəqə, Allah yolunda canından keçərək yer üzündə hərəkət edə bilməyən (və ya buna imkanı olmayan) yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər. (Ya Rəsulum!) Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!"** (Bəqərə 273)

Hədisi-şərif sadəcə fərdlərin işləyərək öz ruzqlərini təmin etmələrini hədəfləmir. Eyni zamanda cəmiyyətlərin, millətlərin və dövlətlərin də başqalarına möhtac olmadan öz ehtiyaclarını təmin edəcək, iqtisadi və sosial inkişafını davam etdirəcək, sərvət və dövlətini qoruyacaq yerli sənayelərini qurmalarını da tövsiyə etməkdədir. Yəni İslam dini dilənçiliyi fərd üçün qadağan edib millət və ya ümmətlərə icazə verməmişdir. Fərdlər üçün qoyulan qadağanlar ümmət üçün daha böyük çərçivədə qadağan olunmuşdur mənasına gəlirik.

Hədisin son qismində insanın özü, ailəsi və xidmətçisi üçün xərclədiklərinin onun üçün sədəqə olduğuna diqqət çəkilmişdir. İnsanın bu sayılanlar üçün öz malından xərcləməsi Allahın rizasına uyğun və İslamın istədiyi bir xərcləmədir. Çünki ailənin dolanışığını təmin etmək insanın əsas vəzifələrindən biri kimi qəbul olunmuşdur. İnsan bu vəzifəni yerinə yetirməklə həm özü və ailəsinə qarşı vəzifəsini yerinə yetirər, həm də bu vəzifəyə görə savab qazanar.

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

ƏBUL-HƏSƏN HARAQANİ (q.s) -4-

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"Allah ﷻ sizi dünyaya təmiz gətirdi, siz də Onun huzuruna kirlənərək getməyin!".[1] [İnsan dünyaya bulanıq bir bətndən gəldiyi halda gözəl ətir saçar, gözlərə aydınlıq, könüllərə fərəh verər. Bu, onun məsumluğundan doğan paklığından irəli gəlir. Allah-Təala da bizim dünyaya göndərildiyimiz kimi tərtəmzi qalmağımızı, dürüst həyat yaşayıb, əməl dəftərini ləkələmədən, yəni tərtəmiz halda hüzuruna çıxmağımızı istəyir. Buna görə də ayeyi-kərimədə belə buyurulur:

Nəfsin bitməyən arzularını riyazət və mücahidə atəşiylə yandırıb onu ruhun enerjisinə çevirmək lazımdır. Həqiqətən nəfs tərbiyə edilərək ayaq altına alındığı zaman sahibini sanki meraca yüksəldən bir vasitə olar. Lakin bunun əksinə, xam halıyla buraxılıb baş üstündə daşınsa, insanı aşağıların ən aşağısına salan mənəvi iflas səbəbi olar.

"(İnsanların diriləcəyi) **o gün nə mal fayda verər, nə də övlad. Ancaq Allaha qəlbi-səlim** (təmiz bir qəlb) **ilə gələnlər** (o gün fayda görərlər)." (əş-Şüəra, 88-89)

Beləliklə biz qullarından qəbul edəcəyi ən qiymətli hədiyyənin "qəlbi-səlim" olduğunu bəyan edir.

Qəlbi-səlim təzkiyə olunmuş, təmizlənmiş, nöqsanlardan azad olmuş, tərtəmiz bir qəlbdir. Buna necə nail olmaq mümkündür? Təbii ki, günah və üsyan kirlərindən, nəfsani ehtirasların qatılığından qəlbi mühafizə edərək. İnsanlıq zərurətindən dolayı özümüzü qoruya bilmədiyimiz günah kirlərini də dərhal peşmançılıq göz yaşlarıyla yuyub, xüsusilə səhər vaxtlarında tövbə və istiğfar ilə təmizləyərək… Hüzuri-ilahiyə ağ üzlə, könül hüzuru və rahat vicdanla çıxa bilmək səylərilə, təqva sahibi bəndə olaraq…

Çünki Allah-Təala qullarını səadət və asayiş yurdu olan cənnətə dəvət edir. Lakin cənnət lətafət diyarıdır. Oraya ancaq kəsafətdən təmizlənmiş, yəni günah kirlərindən təmizlənərək lətif hala gəlmiş

olanlar qəbul edilərlər. Necə ki, ayeyi-kərimədə bu həqiqətə belə diqqət çəkilir:

"Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və (cənnət) gözətçiləri (onlara): "Salam sizə! Xoş, tərtəmiz gəldiniz! Əbədi qalacağınız Cənnətə daxil olun!" – deyəcəklər". (əz-Zumər, 73)

Nəticə etibarilə nə qədər ki, bu gün imkanımız var, günah və məsiyət kirlərindən təmizlənmək məcburiyyətindəyik. Gənclik və sağlamlığa güvənərək tövbə və istiğfarı sonraya saxlamaq mənən həlak olmağa səbəbdir. Bu həqiqətə işarə ilə **Muhamməd Məsum Sirhindi həzrətləri** gənc tələbələrinə belə nəsihət edir:

"Övladım! Ömrün ən qiymətli zamanı gənclik günləridir. İnsanın güclü-qüvvətli olduğu, bədən üzvlərinin sağlam olduğu bu günlər keçər və ömrün ən zəif vaxtı gəlib çatar. Nə yazıq ki, insanlar ən şərəfli qazanc olan mərifətullahı gəlib-gəlməyəcəyi müəyyən olmayan qocalıq vaxtına saxlayırlar. Ömrün ən şərəfli vaxtlarını ən rəzil varlığa, nəfsani həvəslərə sərf edərlər. Unutma ki; **"Sabah edərəm deyənlər həlak oldu!".**[2]

Buna görə Haqq-Təala əldə fürsət varkən tez-tez tövbə və istiğfarı əmr edir. Çünki işlənən hər günah qəlbi qaraldan bir ləkədir. Bu ləkələr çoxaldıqca sonda qəlb qəsvət və üsyan qaranlığına gömülər. Tamamilə səhvsiz bir qul ola bilmək heç bir bəşər üçün mümkün olmadığından insan oğlu üçün daimi mənəvi təmizlənmə cəhdində olmaq şərtdir. Necə ki, ayeyi-kərimədə Uca Rəbbimiz buyurur:

"…Allah tövbə edənləri də, təmizlənənləri də sevər". (əl-Bəqərə, 222) Yəni Allah-Təala zahiri təmizliklə zahirini, tövbə və istiğfar ilə də daxili aləmlərini təmizləyən qullarını sevdiyini bəyan edir.]

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"Ali mərtəbələrə ucalan Haqq dostları ixlasla işlədikləri əməlləri ilə yanaşı nəfslərini də təzkiyə etdikləri üçün yüksəlirlər."[3]

[Mənəvi tərbiyədən keçməmiş xam bir nəfs ilə edilən əməllər nə qədər ixlasla ifa edilmiş kimi görünsə də surətdən ibarətdir, xüşu, hüzur və könül feyzindən uzaqdır. **Necə ki, İmam Rəbbani həzrətləri:**

"Nəfsi-mutməinnəyə qədər edilən ibadətlər və qulluq təqlididir. Nəfsi-mutməinnədə isə bunlar təqliddən təhqiqə çevrilər (yəni kamala çatar)",- buyurmuşdur.

Mövlana həzrətləri də belə buyurur:

"Gündüz kimi işıq saçmaq istəyirsənsə, gecəyə bənzəyən nəfsani arzularını yandırmalısan!"

Yəni nəfsin bitməyən arzularını riyazət və mücahidə atəşiylə yandırıb onu ruhun enerjisinə çevirmək lazımdır. Həqiqətən nəfs tərbiyə edilərək ayaq altına alındığı zaman sahibini sanki meraca yüksəldən bir vasitə olar. Lakin bunun əksinə, xam halıyla buraxılıb baş üstündə daşınsa, insanı aşağıların ən aşağısına salan mənəvi iflas səbəbi olar.

Nəfsi təzkiyə ilə mənlik aradan çıxarılmadığı müddətcə, ibadət, müamilə və xidmətlərə təkəbbür, lovğalıq və eqoizm başda olmaqla bir çox nəfsani məqsədin qarışma təhlükəsi həddən artıqdır. Necə ki, **Həzrət Mövlana** –quddisə sirruh- bir çuvalın dibindəki dəliyi bağlamadan içini doldurmağa çalışmağın bihudə əmək

Mömin dinin zahiri və batini hökmlərinə riayət etmək nəticəsində kamala çatar. Dinin dəstəmaz, namaz, oruc, zəkat kimi zahiri fərzləri olduğu kimi gözəl əxlaqa, təmiz vicdana sahib olmaq, mərhəmət, şəfqət, fədakarlıq, ixlas və təqva kimi batini fərzləri də var.

sərfindən ibarət olduğunu ifadə edir. Bu səbəblə saleh əməllərin Haqq qatında məqbul ola bilməsi üçün ilk növbədə nəfsin xam davranışlarından xilas olmaq zəruridir.

Beləliklə hər insanın nəfs tərbiyəsindən keçərək "mutməinnə" və ondan da yuxarı mərtəbələrə çatmaq üçün səy göstərməsi zəruridir. Bu tərbiyə nəticəsində iman və əxlaqın səviyyə qazanması, ibadətlərin də məqbul olmasına zəmin hazırlayar.

Bu barədə **Sami Əfəndi** həzrətləri belə buyurmuşdur:

"Həqiqi mənada İslama girə bilmək nəfsi-əmmarəni aradan qaldırmağa və ilahi əmrlərə tabe olmağa bağlıdır. Buna görə də nəfsi-mutməinnəyə yüksəlməzdən əvvəl, yalnız qəlbin təsdiqi ilə meydana gələn İslama "Məcazi İslam" deyirlər. Nəfs mutməinnə mərtəbəsinə çatdıqdan sonra olan imana isə "Həqiqi iman" deyilir."]

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"Namaz və orucun fərz olması və ifasının zəruriliyi kimi təkəbbürü, həsədi və ehtirasları da qəlbdən uzaqlaşdırmaq da zəruridir."[4]

"Təndirdən paltarına bir qığılcım sıçrasa, dərhal onu söndürməyə çalışırsan. Bəs dinini yandıracaq olan odun, yəni təkəbbür, həsəd və riya kimi pis sifətlərin qəlbində yer etməsinə necə dözürsən?!"[5]

[Mömin dinin zahiri və batini hökmlərinə riayət etmək nəticəsində kamala çatar. Dinin dəstəmaz, namaz, oruc, zəkat kimi zahiri fərzləri olduğu kimi gözəl əxlaqa, təmiz vicdana sahib olmaq, mərhəmət, şəfqət, fədakarlıq, ixlas və təqva kimi batini fərzləri də var.

Doğrudan da nəfs cilovlanıb, ruh inkişaf etdikcə qəlbin üfüqü genişlənməyə başlayar. O mömin artıq hər şeyə "Yaradan Rəbbinin adıyla oxu!" (əl-Ələq, 1) ayəsinin sirriylə, ibrət nəzəriylə baxar. Baxdığı hər şeydə də ilahi qüdrət təcəllilərini görərək qəlbən Allaha qovuşar.

Həmçinin dində içki, zina, qumar, faiz kimi zahiri haramlar olduğu kimi lovğalıq, təkəbbür, riya, özünü bəyənmə, xəsislik, həsəd, sui-zən kimi batini haramlar da var. Ayeyi-kərimədə buyurulur: **"Günahın aşkarından da, gizlisindən də əl çəkin!.."** (əl-Ənam, 120) Yəni möminin zahiri haramlardan uzaq durması zəruri olduğu kimi, ruhuna zəhər saçan batini haramlardan çəkinməsi də bir o qədər zəruridir. Hətta bir çox batini haram, -mənəvi həyatdakı nəticəsi baxımından- zahiri haramlardan daha təhlükəlidir. Buna misal qəbilindən **Rəsulullah** ﷺ belə buyurmuşdur:

"Qəlbində zərrə qədər təkəbbür olan kəs cənnətə girə bilməz..." (Müslim, İman, 147)

Gördüyümüz kimi batini günahları qəlbdən ata bilmək ən az zahiri günahlardan uzaqlaşmaq qədər mühümdür. Təəssüf ki, ehtiras, həsəd, lovğalıq, riyakarlıq kimi haramlar əksəriyyətlə xəfifə alınadaq daha çox işlənməkdədir. Halbuki mənəvi həyatın xərçəngi olan bu kimi çirkinliklərdən qorunmaq daha da vacibdir.]

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"Çox ağlayın az gülün, çox susun az danışın, çox infaq edin az yeyin, başınızı yastıqdan uzaq tutun!"[6]

[Təsəvvüfi tərbiyədə mənən kamilləşmək üçün tətbiq olunan bəzi üsullar var. Bunlar **riyazət**, yəni nəfsə xoş gələn şeylərdən əl çəkmək və **mücahidə**, yəni nəfsi xoşuna gəlməyən bəzi çətinliklərlə tərbiyə etməkdir. Bu, eyni zamanda ilahi və nəbəvi bir nəfs tərbiyəsi metodudur.

Əshabi-kiramdan **Abdurrahman bin Əvf** رضي الله عنه buyurur:

"İslam nəfsə xoş gəlməyən çətin əmrlər gətirmişdi. Biz xeyirlərin ən xeyirlisini, nəfslərə ağır gələn bu çətin əmrlərdə tapdıq. Məsələn, Rəsulullah ﷺ ilə Məkkədən çıxıb hicrət etmişdik. Nəfsimizə ağır gələn bu hicrətimizlə bizə fəzilət və zəfər bəxş olundu. Həmçinin Allah-Təalanın Qurani-Kərimdə:

"Bu, möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq uğrunda öz evindən çıxartmasına bənzəyir! Gözləri baxa-baxa ölümə sürüklənirlərmiş kimi, haqq (Bədr vuruşunun vacib olması) bəlli olduqdan sonra belə, onlar yenə də bu barədə sənlə mübahisə edirdilər" buyuraraq tərif etdiyi kimi Allah Rəsulunu ilə Bədirə çıxmışdıq. Allah-Təala burada da bizim üçün fəzilət və zəfər lütf etmişdi.

Xülasə, biz ən böyük xeyirlərə həmişə nəfsinizə ağır gələn bu kimi əmrlər sayəsində nail olmuşduq." (Heysəmi, VII, 26-27)

Əbul-Həsən Haraqani həzrətlərinin diqqət çəkdiyi xüsuslar da nəfsani ehtirasları qıraraq ruhaniyyəti inkişaf etdirmək üçün müraciət edilən tərbiyəvi üsullardandır. Bunlara qısaca toxunacaq olsaq:

Çox ağlayın, az gülün!

Dünyəvi sevinclərlə həddindən artıq gülmək, sevinmək və çılğın qəhqəhələr atmaq insana önündəki ölüm, qəbir, diriliş, hesab, sirat kimi çətin mənzilləri unutdurur. Bu isə qəlblərin zərafət və həssaslığını zədələyər, könül feyzini yox edər. Bunun üçündür ki, Allah-Təala:

"Həm də gülürsünüz, heç ağlamırsınız! Siz (qəflət içində) oynayır-əylənirsiniz (ona etina etmirsiniz)." (ən-Nəcm, 60-61) xəbərdarlığını etmiş və başqa bir ayədə:

"Qazandıqlarının (qazandıqları günahların) cəzası (əvəzi) olaraq az gülüb çox ağlasınlar!" (ət-Tövbə, 82) buyurmuşdur.

Rəsulullah ﷺ də:

"Əgər mənim bildiklərimi bilsəydiniz, az gülər, çox ağlayardınız",- buyurmuşdur. (Buxari, Təfsir, 12)

Rəsulullah ﷺ bir gün gülən bir neçə adamla rastlaşmışdı. Onlara belə buyurdu:

"Cənnət və cəhənnəmdən bəhs edən Kitab aranızda olduğu halda siz gülürsünüzmü?!"

Orada olanlardan heç birini vəfat edənə qədər bir daha gülərkən görən olmadı. (Heysəmi, X, 307)

Haqq dostu **Mövlana həzrətləri** necə də gözəl söyləyir:

"Peşmanlıq alovu ilə dolu bir könüllə və nəmli gözlərlə dua və tövbə et! Çünki çiçəklər günəşli və nəm yerlərdə açar!.."

***Çox susun, az danışın*;**

Ağzımıza girən loğma kimi ağzımızdan çıxan hər sözə də diqqət etməliyik. Çünki insan ağzından çıxan hər sözdən məsuldur.

Necə ki bir gün **Muaz bin Cəbəl** ﷺ **Həzrət Peyğəmbər**dən hansı əməli işləməyin daha xeyirli olacağını soruşmuş və bu məqsədlə xeyli saleh əməl sadalamışdı. Lakin Rəsulullah ﷺ hər səfərində:

"İnsanlar üçün bundan daha xeyirlisi var",- buyurmuşdu. Muaz ﷺ:

"Atam-anam Sənə qurban olsun, insanlar üçün bunlardan daha xeyirli olan nədir?",- deyə soruşduqda Allah Rəsulu ﷺ ağzını göstərdi və:

"Xeyirli söz söyləməyəcəksə, susmaq!",- buyurdu. Muaz ﷺ:

"Danışdıqlarımızdan ötrü hesaba çəkiləcəyik?",- deyə soruşdu. Rəsulullah ﷺ Muazın dizinə xəfif vuraraq belə buyurdu:

"Allah xeyrini versin, ey Muaz! İnsanları üzü üstə cəhənnəmə sürükləyən dillərinin söylədiyindən başqa nədir ki? Kim Allaha və axirət gününə inanırsa, ya xeyirli söz söyləsin, ya da sussun, zərərli söz söyləməsin! Siz xeyirli söz söyləyərək qazanc əldə edin, zərərli sözlərdən uzaq olaraq rahatlığa və səadətə qovuşun". (Bax. Hakim, IV, 319/7774)

Həzrət Peyğəmbər ﷺ:

"Rəbbim mənə sükutumun təfəkkür olmasını əmr etdi."[7] buyuraraq, sükutu da bir ibadət vəcdiylə yaşamağın lüzumuna diqqət çəkmişdir.

Doğrudan da nəfs cilovlanıb, ruh inkişaf etdikcə qəlbin üfüqü genişlənməyə başlayar. O mömin artıq hər şeyə "Yaradan Rəbbinin adıyla oxu!" (əl-Ələq, 1) ayəsinin sirriylə, ibrət nəzəriylə baxar. Baxdığı hər şeydə də ilahi qüdrət təcəlliləri görərək qəlbən Allaha qovuşar.

Allah-Təala bizi elə bir imtahan dərsxanasında xəlq etdi ki, hər şey bizə Onu xatırladır. Bunun idrak edilməsi üçün könüldən qəflət pərdəsinin qaldırılması zəruridir. Bu barədə aşağıdakı hadisə nə qədər ibrətlidir:

Tabiun nəslinin böyük şəxsiyyətlərindən Əbu Vail (rəh.ə) nəql edir:

"Abdullah bin Məsud ﷺ ilə səfərə çıxdıq. **Rəbi bin Heysəm** də bizimlə idi. Bir dəmirçinin yanından keçirdik. Abdullah ﷺ dayanıb odun içindəki dəmirə baxmağa başladı. Rəbi də oda baxdı və az qala yıxılacaqdı. Sonra Abdullah oradan ayrıldı. Fərat sahilində bir kürənin önünə gəldik. Abdullah ﷺ kürənin içindəki odun alovlarını gördükdə:

"O (atəş) onları uzaqdan görüncə (kafirlər) onun qəzəblə qaynamasını və uğultusunu eşidərlər. Onlar əlləri boyunlarına bağlı vəziyyətdə o atəşdən dar bir yerə atıldıqları zaman (Dünyada Allaha asi olduqlarına görə özlərinə bəd dua edib) ölüm diləyərlər." (Furkan, 12-13) ayeyi kəriməsini oxudu.

Bu zaman Rəbi özündən getdi. Onu evinə apardıq. Abdullah ﷺ günortaya qədər baş ucunda gözlədi, amma Rəbi ayılmadı. Axşama qədər gözlədi, nəhayət ki, Rəbi özünə gəldi..." (Əbu Ubeyd, *Fəzailul-Quran*, s. 23)

Allah-Təala bizi tez-tez qiyaməti təfəkkürə dəvət edir. Qurani-Kərimin xüsusilə

son 2 cüzündə tez-tez qiyamətdən xəbər verilir. Yer üzü necə olacaq, səmalar necə olacaq, insanlar hansı hallara düşəcəklər və s… Məhz bu həqiqətlərin təfəkküründə irəliləyərək təqvada mərhələ qət etməyə çalışmalıyıq.

Çox infaq edin, az yeyin!

Mömin ehtiyac miqdarıyla kifayətlənib, möhtac olduğundan artığını infaq etməli, özü üçün kifayət miqdarını təyin edərkən də insaflı davranmalıdır. Hər məsələdə olduğu kimi bu işdə də Allah Rəsulunu, əshabi-kiramı və İslam böyüklərini özünə nümunə götürməlidir. Cəmiyyətin ümumi qəbul etdiyini nümunə götürməkdənsə, əsri-səadət cəmiyyətinə baxaraq halını yoxlamalıdır.

Abdullah Dəhləvi həzrətləri az yemək xüsusunda bu gözəl təşbehi edir:

"Dünya həyatı bir gündür, o bir gündə də oruc tutmalıyıq."[8]

Yəni nəfsimizi günahlardan və həddi aşmaqdan çəkindirməliyik.

Həmçinin Allaha məhəbbətimizin göstəricisi Onun yolundakı fədakarlığımızdır. Ayeyi-kərimədə isə əsil fədakarlığa belə işarə olunur:

"Sevdiklərinizdən (Allah yolunda) **xərcləmədikcə "birr"ə** (xeyrin kamillik nöqtəsinə) **çatmazsınız..."** (Ali-İmran, 92)

Başınızı yastıqdan uzaq tutun!

Yəni yuxunun əsiri olaraq, daxili dünyanızı qaraltmayın!

Haqq-Təala ilahi mükafatlarla müjdələdiyi bəxtiyar qulları haqqında belə buyurur:

"O müttəqilər gecələr çox az yatar, səhər vaxtlarında isə istiğfara davam edərdilər". (əz-Zariyat, 17-18)

Həzrət Süleyman عليه السلام-a anası belə nəsihət etmişdi:

"Övladım! Gecələr çox yatma! Çünki gecələr çox yatmaq insanı qiyamət günü müflis edər!" (İbn Macə, İqamət, 174)]

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"«Əməl işləməyinə ehtiyac yoxdur!» demirəm. Lakin işlədiyin əməli özün işlədiyini, yoxsa başqasının sənə işlətdiyini bilmən şərtdir. Əslində bəndə Allahın sərmayəsiylə ticarət edir. Sərmayəni Allaha verib getdikdə əvvəl də Allah, axir də Allah, ortası da Allahdır. Ticarətin Onun saysində qazanc gətirər, sənin sayəndə deyil! Bazarda özü üçün pay görənin oraya yolu yoxdur."[9]

[Qulluq ədəbi xəta və nöqsanları nəfsindən, bütün müvəffəqiyyətləri isə Allahdan bilməyi tələb edir.

Unutmamalıyıq ki, hamımız yoxdan var edildik. Var olmaq və milyonlarla varlıq içində əşrəfi-məxluqat sayılan "insan" kimi yaradılmaq üçün heç bir əvəz ödəmədik. Rəbbimiz bizə fərqində olduğumuz və olmadığımız saysız lütflərini heç bir qarşılıq almadan ehsan etdi.

Ona şükür üçün etdiyimiz ibadət, itaət, xidmət və saleh əməllər də Onun bizə lütfüdür əslində. Çünki O bizə bu yolda güc və imkan verdiyi üçün biz bunlara müvəffəq qılınırıq. Bu səbəbdən özümüzə aid heç bir sərmayəmiz yox. Sırf Allahın bizə verdikləriylə Onun rizasını cəlb etməye çalışırıq.

Bir anlıq düşünək: Allah bizə göz nemətini lütf etməsəydi, necə görə bilərdik? Bədənimizə güc-qüvvət verməsəydi, necə

Unutmamalıyıq ki, hamımız yoxdan var edildik. Var olmaq və milyonlarla varlıq içində əşrəfi-məxluqat sayılan "insan" kimi yaradılmaq üçün heç bir əvəz ödəmədik. Rəbbimiz bizə fərqində olduğumuz və olmadığımız saysız lütflərini heç bir qarşılıq almadan ehsan etdi.

hərəkət edə bilərdik? Bizə təfəkkür qabiliyyəti verməsəydi necə düşünə bilərdik?..

Bir sözlə, əlimizdə nə qədər güc və sərmayə varsa, hamısı Allaha aiddir. Bu səbəblə bir müsəlmanın lüğətində "mən" sözü olmamalıdır. Könlündə mənlik iddiası olmamalıdır. Qulluğunu unutmamalıdır. Əlindəki bütün nemətləri Haqdan bilərək: "Mən etdim, mən qazandım!" deməməli, daim: "Sən lütf etdin, ya Rəbb! Bu, Rəbbimin fəzlindəndir!" deməlidir…

Rəvayət olunduğuna görə Allah-Təala Həzrət Musaya:

"Fironun yanına get, çünki o, əməllibaşlı yolunu azdı..." (Taha, 24) buyurduğu zaman Musa ﷺ, ailə üzvlərini və heyvanlarını zahirən əmanət edəcəyi heç kim olmadığı üçün:

"Ya Rəbb! Ailə üzvlərim və heyvanlarım necə olacaq?",- dedi.

Bu zaman Haqq-Təala belə buyurdu:

"Ey Musa! Məni tapdıqdan sonra daha nə istəyirsən? Sən Mənim əmrimi yerinə yetirməyə çalış! Mənə bağlan və təslimiyyət göstər! İstəsəm, qurdu qoyunlarına çoban, mələklərimi də ailənə mühafizəşi təyin edərəm.

Ey Musa! Bu düşündüyün nədir? Anan səni dənizə buraxdığı zaman səni kim qurtardı? Bundan sonra səni kim yenidən anana qovuşdurdu? Xatırlayırsanmı, sən qəza ilə bir nəfəri öldürmüşdün və Firon öldürmək üçün səni axtarırdı, o vaxt səni ondan kim qorudu?.."

Musa ﷺ bu sözləri hem dinləyir, həm də hər cümlənin sonunda:

"SƏN, SƏN, SƏN, YA RƏBBİ!.." deyirdi.[10]]

Əbul-Həsən Haraqani həzrətləri buyurur:

"Allah-Təala bu dörd xüsusda bəndəsinə xitab edər: Bədən, dil, qəlb və mal. Bədəni xidmətə, dili zikrə vermək kifayət deyil! Qəlbən Allahla birlikdə olub malını da Allah yolunda səxavətlə xərcləmədikcə bu vüslət yolunda məsafə qət edə bilməzsiniz!"[11]

[Haqq-Təala biz qullarından daim özüylə birlikdə olan qəlbi-səlimə sahib olmağımızı istəyir. Buna görə bədənimizin Allah yolunda xidmətlə, dilimiyin də zikrlə məşğul olması vacib olmaqla yanaşı kifayət etmir. Könlümüzün də daim Allah ilə olması və bu sayədə varlıq və mənlik

Həmçinin dində içki, zina, qumar, faiz kimi zahiri haramlar olduğu kimi lovğalıq, təkəbbür, riya, özünü bəyənmə, xəsislik, həsəd, sui-zən kimi batini haramlar da var. Ayeyi-kərimədə buyurulur: "Günahın aşkarından da, gizlisindən də əl çəkin!.." (əl-Ənam, 120) Yəni möminin zahiri haramlardan uzaq durması zəruri olduğu kimi, ruhuna zəhər saçan batini haramlardan çəkinməsi də bir o qədər zəruridir. Hətta bir çox batini haram, -mənəvi həyatdakı nəticəsi baxımından- zahiri haramlardan daha təhlükəlidir.

iddiasından imtina edərək, hər şeyin həqiqi sahibinin Allah olduğu idrakında dərinləşməsi zəruridir. Allahın lütf etdiyi nemətlərdən yenə Onun rizası üçün fədakarlıq etmək surətiylə də həyatımızda bu qəlbi yaxınlığın tələb etdiyi hal və davranışları sərgiləməliyik.

Məsələn, zəkat dinə görə zəngin sayılan hər mömin üçün minimum bir fədakarlıq ölçüsüdür. Lakin insan sevdiyinə sevgisi ölçüsündə fədakarlıq edər. Buna misal sayıla biləcək bu hadisə nə qədər hikmətlidir:

Şeyx Şibli həzrətlərini sınamaq məqsədi ilə fəqihlərdən biri ondan zəkatda malın nə qədərinin infaq edilməli olduğunu soruşur.

Şibli həzrətləri:

"Bunun cavabını fəqihlərin məzhəbinə görə, yoxsa Haqq aşiqlərinin məşrəbinə görə istəyirsiniz?",- deyə soruşur. Fəqih:

"Hər ikisinə görə də olsun",- dedikdə Həzrət bu cavabı verir:

"Fəqihlərin məzhəbinə görə, məsələn, iki yüz dirhəmin üzərindən bir il keçdikdən sonra, qırxda birinə təqabül edən beş dirhəmini vermək lazımdır. Aşiqlərin məşrəbinə görə isə dərhal iki yüz dirhəmin iki yüzünü də vermək, üstəlik "yaxamı qurtardım" deyə şükür etmək lazımdır".

Fəqih belə deyir:

"Biz bu məzhəbi alimlərimizdən öyrəndik".

Bunun cavabında Şeyx Şibli həzrətləri də belə buyurur:

"Biz də bu məşrəbi Əbu Bəkr Siddiqdən öyrəndik.

O, nəyi vardısa, hamısını Rəsuli-Əkrəm ﷺ -in önünə qoydu…"

Nəticə etibarilə biz də Allahın sonsuz lütflərini, mərhəmətinin böyüklüyünü, ehsan və ikramının əzəmətini təfəkkür edərək, imkanlarımız nisbətində Onun qullarına infaq və ehsan etməyə çalışmalıyıq. Ayeyi-kərimədə buyurulur:

"…Allah sənə ehsan etdiyi kimi, sən də (insanlara) **ehsan et!.."** (əl-Qasas, 77).]

Allah-Təala hər birimizi əlindən, dilindən, halından, bir sözlə, bütün maddi-mənəvi imkanlarından ilahi rizası yolunda infaq edə bilən, səxavətli, fədakar və xidmət əhli bəndələrindən eyləsin.

Amin!..

---

1. Haraqani, *Nurul-Ulum,* s. 258.
2. Muhammməd Məsum, *Məktubat*, I, 63, № 65.
3. Əttar, *Təzkirətul-Övliya,* s. 622.
4. Attar, *Tezkiretü'l-Evliya,* s. 629.
5. Harakāno, *Nıru'l-Ulım,* s. 239.
6. Əttar, *Təzkirətul-Övliya,* s. 630.
7. Bax. İbrahim Canan, *Hədis Ensiklopediyası,* XVI, 252, hədis № 5838.
8. Rauf Əhməd Mücəddidi, *Dürrül-Məarif,* İstanbul 1998, s. 143.
9. Əttar, *Təzkirətul-Övliya,* s. 625.
10 Əhməd ər-Rüfai, *Haləti Əhlil-Həqiqəti Məallah*, s. 337.
11. Əttar, *Təzkirətul-Övliya,* s. 631.

Eldar KƏRIMOV
canyanar@yahoo.com

ÖLÜMDƏ YUXU SEVGİSİ

Səhər oyanacağına əmin olmadan ölü kimi yatmaq. Heç bir zaman arzulamadığın ölüm tabutuna sevərək baş qoymaq. Özünü göz qapaqları arasındakı qaranlıqlara buraxıb ətrafında baş verənlərdən xəbərsiz olmaq. Etdiyin və gördüyün əməllərin seçimində heç bir seçim və ixtiyarın olmayan bir dünyada yaşamaq. Sadəcə nəfəs alıb vermək və bədənin heç bir orqanına hakim ola bilməmək. Bu bir dünyadır. Elə bir dünya ki orada bütün bunların olmasına baxmayaraq biz ona sevə-sevə can atırıq. Ömrümüzün yarısını ona həsr edirik. Bəzən yaşamağın mənasını belə onda görürük. Bədənimizin bütün rahatlığını onda tapırıq. Bir gün onsuz yaşamaq ömrümüzün ən çətin anlarına çevrilir. Başımızdakı ağrıların, gözümüzdəki yorğunluğun və bədənimizdəki halsızlığın səbəbini hər zaman onsuz qaldığımızda axtardıq. Həqiqətən də o bizə çox çətin vəziyyətlərimizdə kömək etdi. İstirahətimizin əsas parçasına çevrildi. Amma nə qədər çalışsa da bizə ölümün onun kimi bir şey olduğunu öyrədə bilmədi.

Yuxulu dünyanın sadiq vətəndaşlarına çevrildik. Ayıq başla bu dünyada yaşamağı heç təcrübədən keçirmədik. Biz hər gün ölüb ölümsüzlüyə inanan canlılar olduq. Ölüm deyiləndə daxilimizdə tir-tir əssək də ölümə gedən yoldan heç geri durmadıq. Ona sevərək yaxınlaşdıq. Sevmili olduqlarımızdan uzaq düşdük. Ölümü bir an belə düşünmədən hər gün ölən yazıqlarıq biz. Qorxub çəkindiklərimizə sevərək yaxınlaşmağımızdadır dəyərimiz. Bu dünyada gördüklərimiz və yaşadıqlarımız gedəcəyimiz dünyada görəcəklərimizin və yaşayacaqlarımızın xəbərçisidir əslində.

Hələ bir də yuxu görmək. Yaşadığın dünyadan ayrılıb başqa bir dünyanın qonağına çevrilmək. Həyacan, qorxu və sevgi dolu yuxular. Nə zaman oyanacağını bil-

mədən qaranlıqlara qərq olmaq. Arxadan uzanan qatil əllərindən qaça bilməyən ayaqlarımız. Bu dünyada əldə edə bilmədiklərimizi rahatlıqla əldə etdiyimiz gözəl bir dünya. Bəzən düşmənlərimizin dosta, dostlarımızın düşmənə çevrildiyi inanılmaz reallıqlar.

Hər gün ölüb dirilmək ancaq ölümsüz kimi yaşamaq. Bir gün də yuxuya gedib oyanmamaq var hər birimizin ömür kitabının səhifələrində. Bəli ölümdən qaçış yoxdur bu dünyada. Hər gün səni öz istəyinlə öldürüb dirildən də Odur. O səni səndən yaxşı tanıdığı üçün bunu edib, yoxsa sən özünü əbədiləşdirmək üçün nələr etməzdin ki? Bir dünyaya sahib olub ikinci dünyaya hökm etmək istəyən şahlar sultanlar kimi. İndi onlar da bir zaman qorxub, qorxduğunu sevib sevdiyinin tələsindən qurtulmaq istəsələr də nafilədir.

Məncə qıldığımız namazlar, tutduqumuz oruclar və etdiyimiz bütün ibadətlərimiz bizə hər gün yatdığımız yuxu kimi əziz olmalıdır. Özümüzü bütün varlığımızla onların içərisində itirməliyik. Elə bir zehnə sahib olmalıyıq ki, alnımız səcdələr qapılmaqda görsün istirahətini.

Və son olaraq mövzumuzla əlaqəli maraqli bir hekayəni sizinlə paylaşıram:

Kəndlərin birində iki qardaş yaşayır. Böyük qardaş böyük bir ərazinin sahibi və kəndin ağası idi. O qədər zəngin idi ki, zənginliyi başqa kəndlərdə də dillərdə gəzirdi.

Kiçik qardaş isə böyük qardaşının ərazisində qarın toxluğu üçün qar-qış, isti- soyuq demədən işləyirmiş.

Ortalığın istidən yandığı bir yay günü kiçik qardaş yorğunluqdan haldan düşür və bir ağacın kölgəsində yatıb qalır.

Çox keçmir ki, böyük qardaşı qardaşını, ayağındakı böyük ayaqqabılarıyla sərt şəkildə vuraraq:

Hər gün ölüb dirilmək ancaq ölümsüz kimi yaşamaq. Bir gün də yuxuya gedib oyanmamaq var hər birimizin ömür kitabının səhifələrində. Bəli ölümdən qaçış yoxdur bu dünyada. Hər gün səni öz istəyinlə öldürüb dirildən də Odur.

"Qalx, iş zamanı yatılarmı? İşləməyənə pulsuz çörək yoxdur."- deyərək oyadır.

Qardaşı isə nə olduğunu anlamadan çaşmış gözlərlə qarşısında dayanan böyük qardaşının o heybətli cüssəsi ilə qarşılaşır və: "qardaş niyə oyandırdın məni? Çox gözəl bir yuxu görürdüm. Yuxumda böyük bir evim, yüzlərlə atlarım, saysız heyvanlarım, ucu-bucağı görünməyən tarlalarım, mənim üçün işləyən yüzlərlə işçim, alətlərim və daha saya bilməyəcəyim bir çox vara-dövlətə sahib idim. O qədər gözəl bir yuxu idi ki, kaş ki oyandırmasaydın bir az daha dadını çıxardardım."- deyir.

Böyük qardaşı isə lağ edərcəsinə bir ifadə ilə:

"Sən?,- bu saydıqlarını ancaq yuxunda görərsən."

Halbuki bax mən bütün bu saydıqlarına sahibəm, bunların içində üzürəm..."- deyə cavab verir.

Qardaşı isə mənalı bir ifadə ilə böyük qardaşına baxır və söylədiyi sözlərə peşman edərcəsinə bu sözlər tökülür qurumuş dodaqlarından:

"Qardaş, bilirsənmi əslində ikimiz də yuxu görürük - tək fərqimiz, mənim yuxum gözlərimi açanda bitir, sənin yuxun isə gözlərini bağlayanda bitəcək..."

Yuxulu dünyamızdan yuxusuz dünyamıza oyanıq getmək ümidilə...

İRFAN MƏCLİSİ
Salih Zeki MERİÇ
salihzekimeric@yahoo.com

"FACEBOOK"DA MƏHRƏMLİK

Müasir həyatın bizdən qoparıb apardığı ən əhəmiyyətli dəyərlərimizdən biri məhrəmlik duyğusudur. Avropalaşma həvəsi ilə başlayan dəyər erroziyası hər şeyimizdən bir parça qoparıb apardı. Dinimizdən qopardı, ənənəmizdən, mədəniyyətimizdən, mənliyimizdən qopardı. Qərb ilə bizim mədəniyyətimiz arasındakı fərqlərin başında məhrəmlik gəlir. Çünki məhrəmlik Qərb mədəniyyətində "toxunulmazlıq", Şərq mədəniyyətində isə "gizlilik" üzərinə qurulmuşdur.

Zaman dəyişdi, düşüncə dəyişdi, ehtiyaclar dəyişdi. Qorumamız lazım olan təməl dəyərlər; hörmət, izzət, böyük-kiçik əlaqəsi, ailə və məhrəmlik kimi məfhumların içi boşaldıldı və problemli şəxsiyyətlərdən formalaşan məsuliyyətsiz bir cəmiyyət ortaya çıxdı. Mövcud cəmiyyət tipi və yetişməkdə olan nəsillər avropalaşma ilə öz dəyərləri arasında yol ayrıcında qaldı. Bu mövzuda dərin sosioloji təhlillər edilə bilər. Məsələ bundan ibarətdir ki, Osmanlının son dövrlərində başlayan və cümhuriyyətlə davam edən Qərb heyranlığı bu cəmiyyətin şəxsiyyətində dərin çatlaqlar meydana gətirdi.

İndi sual yaranır: Köklərinə yadlaşmış bir cəmiyyətdə əxlaqi dəyərlərin maya tutması, keçmişi yaşatma və keçmişlə birlikdə gələcəyi qurma qabiliyyəti nə qədər gerçəkləşə bilər?

Qeyb olan mühüm dəyərlərdən biri məhrəmlik duyğumuzdursa, bu, üzərində dayanılması lazım olan bir mövzudur. Çünki məhrəmlik duyğusunun itməsi insanın özünü maraqlandırdığı qədər yaşadığı cəmiyyəti də maraqlandırır.

Məhrəmlik sözü haram sözündəndir. Dini cəhətdən qadağan olan hər şey haram dairəsinə girir. Başqa bir ifadə ilə haram gözəl olmayan, yəni insanlıq qüruruna zidd gələn hər cür əməl və davranış deməkdir.

Məhrəm və məhrəm olmayan ifadələri indiki vaxtda daha çox qadın-kişi əlaqələrində bir-birlərinə qarşı müəyyən sərhədləri qorumaları ilə bağlı istifadə edilər. Kim, kiminlə nə dərəcədə görüşə bilər, kimin yanında necə görsənmək, hərəkət etmək olar? Qurani-Kərimdə möminlərin diqqət edəcəyi və kiminlə evlənib-evlənə bilməyəcəkləri təfərrüatıyla ifadə edilmişdir. (bax. Nisa, 4/23)

Mömin həya sahibidir. Bu xüsusiyyəti onun bəzi vəziyyətlərini başqalarının görməsindən və diqqət çəkməsindən çəkindirər. Məsələn, müsəlmanın yaşadığı ev digər insanların asanlıqla girə bilməyəcəyi "məhrəm" bir mühitdir. Bu səbəblə İslamın bölümlərini izah etmək üçün "hərəmlik-səlamlıqdır" ifadələri işlədilmiş və Rəsulullah (s.ə.s) başqalarının evinə icazəsiz girməyi, insanların şəxsi halları ilə maraqlanmağı, yəni təcəssüsü qadağan etmişdir.

Ancaq məhrəmlik həssaslığı yalnız evin daxili ilə xarici arasında cərəyan edən bir şey deyil. Möminin həyatının hər anında həm başqalarının məhrəmliyini riayəti, həm də öz məhrəm hallarını başqalarına ifşa etməməyi Uca Rəbbimiz əmr edir. (bax. Nur, 58-59)

Bu gün "Virtual Həyat" adlanan bir gerçəklə qarşı-qarşıyayıq. Texnologiyanın inkişafı ilə həyatımızın müəyyən bir qismi, hətta xüsusi hallarımız virtual adlanan bu həyata daşınır və orada davam edir. Telefonumuzdakı şəkillər, kompüterimizdəki yazılar, fotolarımız əslində bizim məhrəm hallarımızdır. Texnologiyanın verdiyi imkanlar ilə təəssüf ki, günümzdə bunlar izlənilə bilir. Məhrəmlik pozulur.

"Sosial Media" "Virtual Aləm", yeni nəsilin imtina etmədiyi və hər keçən gün şəkil və məzmununu dəyişərək həyatımıza girən "Facebook" və "Twitter" kimi internetə əsaslanan ünsiyyət vasitələri idarəsiz istifadə edildiyi zaman məhrəmlik duyğusuna ən çox zərər verən ünsürlərə çevrilə bilir.

Bu səbəblə ünsiyyət vasitələrindən istifadə edərkən öz hüquqi boşluqlarımızı doldurmamız lazımdır. Bir insan "paylaşarkən" nəyi, nə qədər, necə və kimlərlə paylaşa biləcəyinə baxmalıdır.

Çünki bütün bunlar üzvlərinizə sizi zəncirvari izləmə imkanı verir. Siyahınıza qəbul etdiyiniz hər insan əgər istisna qoymadınızsa sizin hər ifadənizi, hər paylaşdığınız rəsmi və ya videonu görə bilir. Bu zəncir yoldaşınız, yoldaşınızın yoldaşı, onun yoldaşı şəklində uzanıb gedir.

Əslində burada diqqət yetirilməsi lazım olan xüsus bizim paylaşma meyarlarımızın olması və xüsusilə İslamın bizə əmr etdiyi məhrəmlik sərhədlərinə uyğun olacaq "paylaşımlar" etməyimizdir.

Sosial media əgər bir həyat tərzi halına gəlmişsə və biz də qaçınılmaz olaraq bu həyat tərzində özümüzə bir yer tapırıqsa, onda real həyatımızda diqqət yetirdiyimiz məhrəmlik ölçülərini bu sahədə də tətbiq edə bilməliyik.

Mənəvi dəyərlərimizin aşındığını göstərən misallardan bir neçəsi:

Məsələn, insanlar ailələrinin məxfi sayıla biləcək şəkillərini asanlıqla paylaşırlar. Xüsusi yazışmaları açıq-aşkar həyata keçirirlər. Və ya icazəsi olmadan bir başqasının şəkilini üçüncü şəxslərlə paylaşa bilirlər. Bu və bənzəri davranışları İslamın məhrəmiyyət anlayışının hansı nöqtəsində qiymətləndirəcəyik?

Təşkilat və qurum olaraq həyata keçirilən bu cür paylaşmaların bir məntiqi var. Təşkilatı tanıdar və təşkilatınızla əlaqədar fəaliyyətləri göstərir. Ancaq fərdi olaraq hər etdiyini paylaşmaq insan eqosunun qabarması və bir xəstəlik olaraq xarakterizə edilən riyakarlıqdan başqa ola bilər?

Hər fotoşəkilini, məhrəmiyyət ayrı-seçkiliyi etmədən necəgəldi paylaşmaq müsəlmanın məhrəmiyyət anlayışı ilə necə izah oluna bilər?

Evlənənlər yoldaşının şəkilini, nişanlananlar nişanlısının şəklini, körpəsi olan körpəsinin şəkilini nə üçün paylaşır? Bir yemək anını və ya tamamilə özünə aid olan bir halı paylaşmağın altında hansı psixologiya yatır?

Bu gün "Virtual Həyat" adlanan bir gerçəklə qarşı-qarşıyayıq. Texnologiyanın inkişafı ilə həyatımızın müəyyən bir qismi, hətta xüsusi hallarımız virtual adlanan bu həyata daşınır və orada davam edir. Telefonumuzdakı şəkillər, kompüterimizdəki yazılar, fotolarımız əslində bizim məhrəm hallarımızdır. Texnologiyanın verdiyi imkanlar ilə təəssüf ki, günümzdə bunlar izlənilə bilir. Məhrəmlik pozulur.

Əslində bu kimi xüsusi hallarımız özümüzdən kənara çıxmamalı deyilmi? Nə üçün, nəyi, kimə və nəyə görə paylaşdığımızı düşünməli, ondan sonra paylaşmalı deyilikmi?

Gizlilikdə sirr və gözəllik var. Bu paylaşma dəliliyinin altında yatan xüsusi böyük ehtimalla özünü isbatlama səyidir…

Saysız tələbə yetişdirən müəllim – Nəbi Abdullayev:

İKİ MƏSƏLƏDƏ DƏQİQ VƏ DOĞRU SEÇİM EDİLMƏLİDİR!

İrfan: *Nəbi müəllim, ilk növbədə özünüz haqda məlumat verin zəhmət olmasa.*

Nəbi Abdullayev: 1936-cı ildə Zaqatalanın Zəyəm kəndində dünyaya göz açmışam. Dörd yaşım olanda atam müharibəyə gedib, bir daha qayıtmayıb. Ailədə dörd uşaq olmuşuq. Bizi nənəm böyüdüb. 1954-cü ildə orta məktəbi qurtarıb sənədlərimi ali məktəbə vermişəm, elə həmin il də instituta daxil olmuşam. 1959-cu ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun ingilis dili fakültəsini bitirmişəm. İlk tədris fəaliyyətimə rayonumuzun Qımır kəndində başlamışam. Qımır, Gözbarax, Çobankol kəndlərində işləmişəm. 1960-cı ildən isə Çardaxlar və Muxax kəndində müəllimlik etmişəm. 14 il müəllim işlədikdən sonra Zəyəm kəndində yerləşən səkkizillik məktəbə direktor təyin olunmuşam. 1995-ci ilə qədər, 23 il həmin məktəbin direktoru olmuşam. 2002-2012-ci illərdə BİU-nin Zaqatala şöbəsində dərs demişəm. Keçən il yaşımla əlaqədar olaraq işdən ayrılmışam. Dörd övladım var; üç oğlan, bir qız. Hamısı ailə qurublar, yeddi nəvəm var.



İrfan: *Uşaqlıq illəriniz çətinliklə keçib. O illərdən hansı təsirli hadisələr qalıb yadınızda?*

Nəbi Abdullayev: Çox çətin dövr yaşamışıq. 1941-ci ildən 50-ci illərə qədər iqtisadi cəhətdən həddən artıq çətin idi vəziyyət. Biçilmiş sahələrdən sünbül yığırdıq yemək üçün. Hamı çətinliklə dolanırdı, xüsusilə yetim olanlar... Hər şey cəbhəyə göndərilirdi. Ali məktəbdə oxuyanda dövlətin verdiyi tələbə təqaüdü ilə dolanırdıq bir təhər.

İrfan: *Nəbi müəllim, uzun ömür yaşamısınız Allah daha da uzun etsin! Ömür*

yollarına boylananda həyatı necə görürsünüz? Həyat nədən ibarətdir? Necə başa düşülməlidir?

Nəbi Abdullayev: Yetmiş yeddi yaşıma çatmışam, çevrilib arxaya baxıram, heç nə görmürəm. İnsan ömrü çox qısadır, həyatsa şirin. İnsan dünyadan doymur. Amma Allahın hərəyə verdiyi bir ömür payı var. Mən əlli il bundan əvvəl dünyanı bugünkü kimi dərk edə bilsəydim, bəlkə də yaşaya bilməzdim. İnsan hər yaş dövründə dünyanı bir cür dərk edir. Artıq bu yaşda ölüm təlaşı hər an yada düşür. İnsan nə qədər yaşasa, yenə yaşamaq istəyir. Dünyanı dərk edə-edə gəlmişəm, yaxşını da, pisi də görmüşəm. Dünya uzaqdan qırmızı almaya bənzəyir, yanına gələndə görürsən ki, çürükdür. Allahın yaratdığı hər insan bir ömür yolu keçir. Bir meyvəyə bənzədək. Əvvəlcə ağacda göy olur, sonra yavaş-yavaş yetişir, gözəlləşir. Vaxtında dərməsən başlayır bürüşməyə, saralıb-solmağa. İnsan da elədir. Müəyyən yaş dövrü var. Qırx yaşa kimi cavan qalır, sonra qocalmağa başlayır. Bir şeirimdə də yazmışam:

Dünya bir meydandır, insan fırfıra
Fırlada-fırlada aparır gora.

İrfan: *Bildiyimizə görə namaz da qılırsınız. Nə vaxtdan başlamısınız namaza?*

Nəbi Abdullayev: Namaz qılmağa 1990-cı ildən başlamışam. Yeri gəlmişkən deyim ki, Seovet ittifaqı bizi dinsizləşdirirdi. Mən 30 il kommunist olmuşam. Şükür ki, o rejim dəyişdi və bu gün dinimiz azaddır. Hər kəs istədiyi kimi yaşaya bilir. Mən də namazımı qılıram, oruclarımı tuturam. Ölüm gəlmədən tövbəyə tələsmək lazımdır. Allah tövbələri qəbul edəndir.

İrfan: *Namaza başladıqdan sonra sizdə nə dəyişiklik oldu?*

Nəbi Abdullayev: İnsan namaza başlayandan sonra dünyanı tam mənasıyla dərk edir. Allahı dərk edir, o biri dünyanı dərk edir. O insan xoşbəxtdir ki, dünyanı dərk edir və Allah onun qəlbinə nurunu salır ki, tövbə edib düz yola qayıtsın. Dünyaya gələndə Allah bizə iki yol göstərir: öz yolu və şeytanın yolu. Kim hansına istəsə gedə bilər.

Yetmiş yeddi yaşıma çatmışam, çevrilib arxaya baxıram, heç nə görmürəm. İnsan ömrü çox qısadır, həyatsa şirin. İnsan dünyadan doymur. Amma Allahın hərəyə verdiyi bir ömür payı var. Mən əlli il bundan əvvəl dünyanı bugünkü kimi dərk edə bilsəydim, bəlkə də yaşaya bilməzdim. İnsan hər yaş dövründə dünyanı bir cür dərk edir.

İrfan: *Namaza gəlməyinizə nə səbəb oldu?*

Nəbi Abdullayev: 20 yanvar qırğını. Bütün ölkə matəmə bürünmüşdü, duyğulu anlar yaşanırdı. Mən onda dərk elədim ki, bizim o biri dünyamız da var, bu dünyadakı hər şey fanidir. İbadət etmək zəruridir.

İrfan: *İnsanlar dünya malı üçün bir-birini qırırlar. Sizcə dəyər buna?*

Nəbi Abdullayev: Allah-Təala insana bildirir ki, dünya malına çox həris olma. Onsuz da özgəsinə qalacaq. Şəxsən mənim gözümdə dünya malının bir qəpik də qiyməti yoxdur. Bir tikə çörəyim varsa, şükür. İnsanın ehtiyacı olan miqdar zəruridir, ondan artığı isə dünya malıdır. Yaxşı ki, müəllim olmuşam. Allahın verdiyi sağlam can hər şeydən artıqdır mənim üçün. Heç vaxt başqasının malında gözüm olmayıb. Rəhmətlik nənəm qıtlıq illərində deyərdi ki, oğurluq etməyin, günahdır. Qonşunun yumurtasını gətirsən, gözümə görünmə. Çox təmiz, əliaçıq insan idi. Bizi də elə olmağa çağırırdı. Pis yola düşmədik, şükürlər olsun!

İrfan: *Nəbi müəllim, dediyiniz kimi həyatın hər üzünü görmüsünüz. Bu yaxın-*

larda dəhşətli zəlzələni də yaşadınız. Bizə maraqlıdır, hansı hissləri keçrdiniz?

Nəbi Abdullayev: Mən universitetdə Fuad müəllimlə otaqda oturmuşdum. Bir də gördük ki, yer-göy lərzəyə gəlir, qaçdıq çölə. Allah bizi bununla imtahan etdi deyərdim. Bəlkə də ikinci belə zəlzələ olmayıb ki, bir nəfər də olsa daşın, dağıntının altında qalmasın. Allah qorudu. Şəxsən mənim evimin hər tərəfindən daş töküldü, amma uçmadı. Mən düşünürəm ki, bu, Allahın imtahanı idi. Camaatı ayıltdı.

İrfan: *Xanımınız evdə idi yəqin ki. Bəs onun sarıdan hansı hissləri keçirdiniz?*

Nəbi Abdullayev: Dərhal telefonu götürdüm evə zəng etməyə, gördüm işləmir. Başqa operatorla zəng etməyə çalışdım, o da işləmədi. Ürəyim evdə idi. Tez bir maşın tutub özümü evə yetirdim. Görəndə ki, salamatçılıqdı, elə bil dünyanı mənə verdilər. Dedim, Allah sənə şükür. Şükürlər olsun ki, yoldaşım sağdır, qalan hər şey düzələr. Elə də oldu. Dövlətimiz dəstək oldu, dağılan evlərin yerində yeni evlər tikildi. Gördüyünüz kimi hər cür şəraitlə təmin ediblər. Yeri gəlmişkən prezidentimizə minnətdarlığımı bildirirəm.

İrfan: Nəbi müəllim, belə nəticəyə gəlirik ki, ailədə qarşılıqlı sevgi və hörmətiniz ilk gün olduğu kimidir. Keçən illər sizi bir-birinizdən soyutmayıb. Amma zəmanəmizdə qurulan ailələrə baxanda görürük ki, tezliklə soyumalar, bir-birindən uzaqlaşmalar və boşanmalar artıb. Niyə belədir, görəsən?

Nəbi Abdullayev: Ailə bir dövlətdir. Onun xarici siyasəti də var, daxili siyasəti də. Ailə insanın həyatıdır, taleyidir. Dünyaya gələn övladı quşa bənzətsək, onun bir qanadı atadır, obiri qanadı ana. Biri olmasa uça bilməz. Uşaqların xoşbəxtliyi ata-analarının olmasına bağlıdır. Bir ağsaqqal kimi gənclərə tövsiyəm odur ki, seçərkən doğru seçsinlər. Peşə və ailə seçimi çox mühümdür. Elə seçmək lazımdır ki, ailəni axıra kimi davam etdirə biləsən. Bir dəfə məktəbdə oxuyan uşaqlardan birinin çox qəmgin olduğunu gördüm. Səbəbini araşdıranda bildim ki, atası ilə anası boşanma həddindədir, hətta qadın atası evindədir. Uşağın atası ilə danışdım, sağ olsun nəsihətimi dinlədi, barışdılar. Ondan sonra uşağın üzü güldü. Bax bu gülüşü heç nəyə dəyişmək olmaz. Uşaq üçün ən böyük nemət ata-anadır, ata-ana üçünsə övlad.

İrfan: *Bəs övladlara nə tövsiyə edirsiniz?*

Nəbi Abdullayev: Bu dəqiqə narkomaniyanın yayıldığını müşahidə edirik. İlk növbədə içkidən və narkotik maddələrdən uzaq olmalarını tövsiyə edirəm. Sonra yalandan və ata-anaya hörmətsizlikdən uzaq olsunlar. Ata-anaya hörmət edin. Sabahkı günü düşünün. Haramdan qaçın. Həyatı tam mənada dərk edə-edə yaşayın, valideynlərin qədrini bilin.

İrfan: *Uzun illər təhsillə məşğul olmusunuz. Bir pedoqoq kimi indiki təhsilin səviyyəsi sizi qane edirmi?*

Nəbi Abdullayev: Düzü, Sovet təhsil sistemi pis deyildi. Mən o təhsil sistemi ilə bugünkünü müqayisə edə bilmərəm, amma orta məktəb proqramı çox ağırdır. Uşaqların yaşına görə çox ağırlaşdırıblar. Uşağı bu qədər yükləmək düzgün deyil. Əvvəlki illərdə uşaqlar daha savadlı yetişirdilər.

İrfan: *Nəbi müəllim, bizə vaxt ayırdığınıza görə təşəkkür edirik. Həm də ona görə təşəkkür edirik ki, gözəl tələbələr yetişdirmisiniz.*

Nəbi Abdullayev: Çox sağ olun. Tələbələrimin həyatda yüksək mövqe tutduqlarını görəndə çox sevinirəm. Onlar bizim yetişdirdiyimiz meyvələrdir. Bir müəllim kimi həmişə çalışmışam ki, ilk növbədə həyatda düzgün mövqe tutsunlar, həyatı tam mənası ilə dərk etsinlər, arzum odur ki, övladlarını özləri böyütsünlər.

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

İBRƏTLƏR

Zəhmət Buyurdunuz, ya Rəsulallah!

Bir türk zabiti şiddətli döyüş əsnasında ağır yaralanaraq qanlar içində yerə sərilmişdi. Yanında bir neçə əsgər vardır, yaralarından qan fışqırır, son anlarını yaşayırdı. Birdən:

- Məni ayağa qaldırın, dedi.

Əsgərlər şəhidliklə şərəflənmiş sevimli komandirlərinin bu son arzusunu yerinə yetirirlər, macalsız bədəninin qollarına girərər ayağa qaldırırlar.

Mübarək şəhid güclə eşidiləcək səslə kəlmeyi-şəhadət gətirir və sonra:

- Zəhmət buyurdunuz, ya Rəsulallah!- deyərək son nəfəsini verir.

MƏSNƏVİDƏN

Dərvişin məqamı

Gəmidə bir dərviş vardı, əsl ərənlərdən idi. Səyahət əsnasında bir kisə qızıl itdi, orada olan hər kəsi axtararkən, bir nəfər dərvişi göstərərək:

- Bu yatan yoxsulu da axtaraq,- dedi. Onu da oyandırdılar :

- Bu gəmidə bir kisə qızıl itdi. Hər kəsi axtarırıq, səni də axtaracağıq , başqa çıxış yolu yoxdur. Haydı, cübbəni çıxart, heç kimin şübhəsi qalmasın,- dedilər.

Dərviş :

- Ya Rəbbi, bu alçaq insanlar qulunu töhmət altında qoyurlar, fərmanını yetir,- dedi.

Dərvişin könlü hüznlənən kimi dənizin hər tərəfindən yüz minlərlə balıq başını çıxardı. Hamısının ağızında bir inci vardı... Hər biri ilə az qala bir məmləkəti doyurmaq olardı. Əlbəttə… Haqqın göndərdiyi misilsiz olmalıdır. Dərviş bir neçəsini götürüb gəmiyə atdı. Sonra da yüksəldi, havada padşahlar kimi taxt üstünə bardaş qurub oturdu, belə dedi:

- Gedin, gedin, görək bu ayrılıqdan kim zərər çəkəcək? Gəmi sizin olsun, Haqq mənim. Yoxsul biri sizinlə birlikdə ola bilməz, elə deyilmi? Mənim üçün xoşdur; Haqla cüt, xalqdan tək!.. O, nə məni oğurluqla töhmət altına alar, nə də yaxamı bir qeybətçiyə verər.

Gəmidəkilər dedilər:

- Ey ulu insan, sənə bu uca məqamı necə verdilər?

Dərviş belə dedi:

- Yoxsulu zənn altında buraxmaq, xor və alçaq bir şey üçün Haqqı incitmək üzündən!!!... Haşa, buna görə deyil. Ululara təzim etdiyimdəndir... Çünki yoxsullar haqqında əsla sui-zənnə qapılmadım. Haqlarında “Əbəsə” surəsi nazil olmuşdur. Yoxsulun yoxsulluğu dünyalıq üçün deyil. Haqdan başqa heç nələri olmadığı üçün onlar da yoxluğu, yoxsulluğu mənimsəmişlər.

Adem ŞAHİN
ameha0@hotmail.com

NATIONAL GEOGRAPHIC, İNTERNET VƏ TABU SƏNƏDLİ FİLMLƏRİ-2

İnanclar

Filippində pasxa bayramının qeyd olunduğu həftədə əvvəlcə özünü fəda edən insanlar qırmancla döyülür, sonra isə əllərinin içindən mismarlanaraq çarmıxa çəkilirlər. Allahın lütfünə iztirab çəkərək bir növ şükür etdiklərini düşünürlər. Daha yaxşı dindar olmaq üçün daha çox iztirab çəkməyin lazım olduğunu düşünürlər.

İnanc ayinləri

Bu ayinlər özünü isbat etmək və yaxşı əhval-ruhiyyədə olmaq üçün təşkil olunur. Papua Yeni Qvineyanın kəndlərində oğlan uşaqlarının yetkinlik çağına keçməsi üçün şəkər qamışının0-60 sm.) mədələrinə salınıb-çıxardılması şərtdir. Qamış udmaqdan məqsəd mədəni gücləndirmək və doğuşda udulan kirli qanın bədəndən təmizlənməsidir.

Avstraliyada "sallananlar" adı verilən bir qrub adam dəridən keçirilmiş balıq qarmağına bənzər qarmaqlarla özlərini tavandan asaraq sallanırlar.

Bədən ağrıya qarşı dirənmək üçün endorfin adlı hormon ifraz edir. Uyuşdurucu təsiri verən bu hormonun verdiyi zövq üçün ağrıya meyil edənlər var.

İnancda həddi aşmaq

Bəzi cəmiyyətlərdə sədaqət iztirab çəkməklə isbatlanır. Şimali Hindistanda siçanlar ilahə Kari Matanın uşaqları sayılır. Məbədlərdə minlərlə siçan var və "yağ-bal" içində üzürlər. Tənasühlə insanların siçan olacağına inandıqları üçün onlara görə siçan müqəddəsdir. Öldürmədikləri kimi, onlarla eyni qabdan yemək də yeyirlər. Məbəddəki siçanları ataları sayır, onları bərəkət qəbul edirlər.

İyrənc yeməklər

Bizi formalaşdıran şeylərdən biri də yediyimiz qidalardır. Vyetnamda müştərinin önündə ilan diri-diri kəsilir, qanı düyü suyuna qatılaraq içilir. Hərəkət edən ilanın ürəyi çıxardılıb udulur. İlanın ödü dərman kimi stəkanla içilir. İnanclarına görə ilan əti cinsi gücü artırır, böyrəkdəki ağrıları və qumları təmizləyir. Vyetnam, Kamboca və Çində it əti, yarasa və tarantula hörümçəyi də yeyilir.

Cütlüklər və əlaqə

Amerikada da həyat yoldaşının ətini kəsərək hər həftə çıxan qanı içən insanlar yaşayır. Qan isti-isti içilməlidir, soyuduqdan sonra təsiri itir. Nigeriyada səhra köçəriləri arasında başqasının avradını qaçırtmaq təbii haldır. Qadın başqasıyla razılaşıb evdən qaça bilər.

Cinsəllik

Eşq və şəhvət çox gülcü iki duyğudur. Kültürü dəyişdirmə gücünə malikdir. Yol-

daşını dəyişənlər (swinger) təkevliliyə qarşı çıxırlar. Bir gecəliyinə yoldaşlarını dəyişdirənlər bunu zina saymırlar. Belələrinin sayı təxminən 4 milyondur. Partnyor dəyişdirməyi nəzarət altında və etik aldatma fürsəti kimi görürlər. Amerika və Avropada 3000-dən çox partnyor dəyişmə klubu var.

Cinsiyyət fərqi

Cinsiyyəti hormonlar təyin edir və istiqamətləndirir. Cinslərarası hüdudlar müəyyənləşmiş və rollar tamamlanmışdır. Cinsiyyət davranışlara şəkil verir. Amerikada hər il təxminən 1000, bütün dünyada isə 5000 adam cinsiyyətini dəyişdirmək üçün əməliyyata girir.

Küçə qadınları

Amerikada küçə qadınlarının 75 faizinin yaxın qohumlarla cinsi münasibətin qurbanı olduğu deyilir. Bunların əksəriyyəti eroin və digər narkotik maddələrin aludəçisidir. Çexiyada pozğunçuluğu vitual dünyaya yayan fahişəxanalar var. İçəridə baş verənləri kameralar canlı yayımlayır və tamaşaçılar onlayn səs verir.

Çılpaqlıq

Bir çox ölkədə çılpaqlar düşərgəsi qurulur. Çılpaq olmağa göy libaslı olmaq deyirlər. Patlarları çıxardıqda hər şey bərabər olurmuş. Çılpaq olmaq cinsi münasibət üçün deyil, həyatı daha sərbəst yaşamaq üçündür. Çılpaqlıq kimlərə görə xəcalətverici, kimlərə görə isə tanrının bizi yaratdığı şəkildir. Paqanizm təbiətə sitayiş deməkdir. Paqanist inanca sahib olanlar ayın bədirləndiyi gecədə soyunur, əllərini yuxarı qaldıraraq aydan enerji almağa çalışırlar. Dünyada 10000-ə yaxın paqanist yaşayır.

Köklük

Tarixdə qida bolluğu və qidanın asan əldə olunması tarixdə ilk dəfə yaşadığımız zamana aiddir. Yeni bir epidemiya insanları cənginə almış vəziyyətdədir: köklük. Toppuş uşaqlıqdan ağırçəkili gəncliyə, bundan da köklüyə keçməyə başlandı. Amerikanın üçdə biri kök, digər üçdə biri isə köklüyə meyillidir.

Uyuşdurucular

Şəfa tapmaq və şüuru dəyişdirmək üçün uyuşduruculardan istifadə olunur. Spirtli içkilər və anti-depressiya dərmanları da şüura təsir edir və hər ikisi qanunidir. Şüurda yaşanan dəyişiklikdən tələşlanmaq qorxusu və geri dönüşün olmama ehtimalı narkotiklərə qarşı xof yaradır.

Nepalda tanrı Şiva üçün marixuana çəkirlər. Şivanın gözləri yarıyumulu göstərilir. Yarımyumulu olmasının səbəbi marixuana çəkməsidir. Bir aylıq festivalda marixuana çəkmək qanuni, digər vaxtlarda qadağandır. Günah və dərd yeri olan dünyadan ölmədən xilas olmağın yolu marixuana çəkməkdir. Hollandiyada açıq-aşkar marixuana va ekstazi satılır. Ağır narkotik maddələr orada da qadağandır. Yüngül olanlar sərbəstdir. Azı verib, çoxa mane olmaq məqsədi güdülür. Ekstaziyə qucaqlama və eşq həbi də deyilir. Ekstazi xoşbəxtlik hormonu olan seretonini artırır.

Narkotik

Tarixən hər bir mədəniyyətdə narkotik maddələrlə şurunu uyuşdurmaq istəyən insanlar olmuşdur. 1937-ci ilə qədər Hind kənəviri (marixuana) apteklərdə açıq satılırdı. Sonra qadağan edildi. Marixuanadan müalicə məqsədi ilə istifadə edən həkimlərə görə spirtli içki və tütün marixuanadan daha zərərlidir. Marixuanadan xəstəxanaya düşən yoxdur, amma spirtli içki və tütündən düşənlər var.

Fərqli ayinlər

Bir çox mədəniyyətlərdə həddi-büluğa, evliliyə və ölümə keçiş ayinləri ağrılı və şiddətli olur. İslandiyada da ənənəvi qaydalara görə həddi-büluğa çatmağın sübutu üçün meşədən kəsilmiş sarmaşıqlarla 21 metr yüksəklikdən tullanırlar. Bu tullanma "bangi jamping"ə ilham olmuşdur.

İlham SOVQATOV

DÜNYANIN DƏRDİ VAR...

Allah-Təala dünya həyatını insana müəyyən müddət yaşamaq üçün bəxş etmişdir. Yaşamaq bir nemətdir. Həqiqətən də insanda yaşamaq həvəsi, yaşamaq eşqi var. Çox maraqlıdır ki, hamı ölümdən qaçır, hamı ölümdən qorxur, lakin hamı ölümü dadacaqdır. Dünya həyatı insana cazibəli gəlir, insan dünyadan qopmaq istəmir. Dünya insan üçün çox sevimlidir. Bəs insan dünyaya sevimlidirmi, bax, biz orasını bilmirik.

Deyirlər ki, hərənin bir dərdi var, dərdsiz adam yoxdur. Əlbəttə, bu dünyanın da dərdi var. Şair Səməd Vurğun "Bakının dərdi var, Bakı xəstədir"- deyirdi. İndi mən də "Dünyanın dərdi var, Dünya xəstədir!",- deyirəm. Həqiqətən də uzun bir tarixə sahib olan bu qocaman dünyada nələr baş verdiyini sadəcə bir Allah bilir, bir də dünya özü. Nə cür insanların gəlib getdiyini, bu dünyada yaşadığını da dünya bilir. Bu dünyanın dərdi olmazmı, bu dünya xəstə olmazmı? Dünya haqsızlıqlar yurdudur deyirlər. Dünya nakamların məskənidir. Dünya namərdlərin at oynatdığı yerdir. Bütün bu mənfi xüsusiyyətlər hamısı dünyaya aid edilir. Bəs dünyanın dərdi olmazmı, dünya xəstə olmazmı?.. Məhz buna görə dünyanın dərdi var, dünya xəstədir!

Dünyada baş verən hadisələrin yükünü kimi daşıyır, tarix boyu qətliama kim şahidlik edir, minlərlə günahsız insanların ölümünü kim görür, diri və ölünü qoynunda kim daşıyır, bütün bu haqsızlıqların məsuliyyətini öhdəsinə götürən kimdir? Təbii ki, bütün bunları görən və hesabını soruşacaq olan Allahdır. Lakin dünya da bütün bunları görür, şahidlik edir. Dünya danışa bilmədiyinə görə dərdini deyə bilmir. Bu səbəblə dünyanın dərdi var, dünya xəstədir!

Dünya intizardadır, haqqın-ədalətin bərqərar olacağını gözləyir. Dünya həsrətdədir, bir gün belə səadət dolu keçirmək üçün burnunun ucu göynəyir. Dünya darıxır, əsri-səadətdəki o mükəmməl abhavanın bir daha qayıtmasını istəyir. Dünya kədrələnir, günahsız insanların qətlinin qarşısını ala bilmədiyinə görə. Dünya utanır, çılpaqlığı, pozğunluğu, həyasızlığı aradan götürə bilmədiyinə görə. Dünya məyusdur, insanlar arasında baş alıb gedən xəstəliklərə şəfa ola bilmədiyi üçün. Dün-

ya susur, çünki dünyada müharibələrdə vəhşicəsinə öldürülən insanların harayı, yetim qalmış və öldürülən körpələrin səsi, gözü qarşısında əri və övladı qətlə yetirilən qadınların və anaların ah-naləsi dünyanın səsini batırır. Dünya ağlamır, çünki onun yerinə məzlum insanlar ağlayır. Dünya gülmür, çünki onun yerinə zülmkarlar, zalımlar gülür. Dünya gözünü yumur, insanların birbirilə necə müharibə etdiyini, bir-birinin haqqını necə yediklərini görməsin deyə. Bəli, dünyanın dərdi olduqca böyükdü, dünyanın dərdi var dünya xəstədir!

Bütün bunlar dünyanı xəstə edir. Bütün bunlar dünyaya dərd verir. Dünyanın dərdi olmazmı, əlindən dünyasını alıblar. Dünyanın xülyasını, hisslərini, xoşbəxtliyi əlindən qoparıblar. Bəli, dünyanın dünyası yıxılıbdır artıq. Buna görə dünyanın dərdi var, dünya xəstədir!

"Olmadı sirrin açan sehrli qaldı dünya" deyən şair də dünyanın sirrini axtarırdı. Dünya sirrini vermir, çünki burada gizlin baş verən cinayətlərin üstü açılar. Əgər dünyanın sirri açılarsa, hamı bu dünyadan baş götürüb qaçacaq. Bunun üçün dünyanın dərdi var, dünya xəstədir!

Dünyan dağılsın, dünya! Sənin nə qədər dərdin var imiş. Neçə-neçə saysız-hesabsız müharibələrə meydan vermisən. Bəli, hamı dünyanı qınayır, hamı dünyanı günahkar hesab edir. Bəs dünya kimi günahlandırsın, kimdən bu olanların hesabını alsın, kimi ittiham etsin, bütün bu haqsızlıqların məsuliyyətini kimin boynuna qoysun? Dünyanın heç kimə gücü çatmır, ona görə dərdi var, dünya xəstədir!

Dünya bu gün Hz. Muhammədin şəfqətinə, dəvətinə və mərhəmətinə, Hz. Əbu Bəkrin insanpərvərliyinə, Hz. Ömərin ədalətinə, Hz. Osmanın həyasına, Hz. Əlinin elminə, şücaətinə, fərasət və helminə, bir sözlə imana, İslama və haqqa möhtacdır. Elə bunun üçün də dünyanın dərdi var, dünya xəstədir!..

KAPİTALİZMƏ QARŞI İSLAMİ DURUŞ

Unutmamaq lazımdır ki, batil ilə İslam birləşməz. Bu mümkün deyil. Çünki kommunizmdə mülk cəmiyyətindir. Kapitalizmdə mülk fərdlərindir. Əslində ikisinin də iddiası eyni xüsusdadır. Kommunizm mülk cəmiyyətindir deyir. Kapitalizm isə mülk fərdlərindir deyir. Yəni mülkün kimə aid olması üstündə mübarizə gedir. İslam isə ***"Mülk nə fərdlərindir, nə cəmiyyətindir, mülk Allahındır"***, -deyir. Onun üçün İslam digər sistemlərlə sintez oluna bilməz. İslamın gözəlliyi və ehtişamı da bundadır. Protezə ehtiyacı yoxdur. Onu başqa cərəyanlarla sintez etmə səyi yalnız bir qəflətdir.

Mövlana Həzrətlərinin bu qəfləti izah edən gözəl bir misalı var. Allah balıq üçün hər cür ruzini dənizdə yaratmışdır. Lakin o, çöldən atılan qarmaqdakı yemə heyran olar. Qarmağı görməz, onun ucundakı soxulcana ram olar. O soxulcanı almaq istəyərkən həyatını məhv edər.

İslamın başqa bir sistemlə sintezləşdirilməsi İslam üçün bir zəiflik olar. Halbuki İslam ən böyük sistemdir. Onun əsası Allahdan gəlir. Heç bir bəşəri sistem ilə sintez olunmaz. Buna cəhd göstərildikdə bəzi səhvlər ortaya çıxar. Ya kapitalizmə yanaşar, ya da kommunizmə yaxınlaşar. O ehtişamını itirər. Möminlər də şəxsiyyətlərini, xarakterlərini itirərlər.



Anar QURBANOV
akurban78@hotmail.com

Sual Cavab

Sual: Bir şəxs müəyyən bir müddət təmənnasız yaşamaq şərtilə öz evini sata bilərmi?

Cavab: Hənəfilərə görə, əqdin gərəyi və alqı-satqı müqaviləsinə müvafiq olmayan, eləcə də adət-ənənədən olmayan və tərəflərdən hər hansı birinin xeyrinə olan bir şeyi müqavilə bağlanan zaman şərt qoşmaq caiz olmadığı üçün, həmin müqavilə fasiddir (etibarsızdır). Hənəfilərin bu mövzuda söykəndikləri dəlil Hz. Peyğəmbərin (s.ə.s.) şərtli alqı-satqı müqaviləsini qadağan etməsidir (bax. Buxari, Büyu, 73; Təbərani, "əl-Mücəmül-Kəbir", IV, 248). Maliki və hənbəlilərə görə isə, əqdin gərəyi olmayıb, eyni zamanda ona zidd də düşməyən hər hansı bir şeyin şərt qoşulması caizdir. Çünki Rəsulullah (s.ə.s.) bir səfərində Hz. Cabirdən dəvəsini satın almaq istəmiş, o da Mədinəyə qədər minməsini şərt qoşaraq satacağını bildirdikdə, Rəsulullah (s.ə.s.) həmin şərti qəbul edərək dəvəni satın almışdır (bax. Müslim, Müsaqat, 113).

Odur ki, maliki və hənbəlilərə görə, satıcının özünün bir müddət təmənnasız oturması şərtilə evini satması caizdir. Qeyd edək ki, dövrümüzdə bu cür alqı-satqı adət-ənənə halına gəldiyi üçün hənəfilər də caiz olduğunu bildirmişlər.

Sual: Tam yetişməmiş göy-göyərti və meyvələrin satılması caizdirmi?

Cavab: Hz. Peyğəmbərin meyvəsi tam yetişənə qədər xurmanın, dənəsi ağarıb təbii fəlakətdən təhlükəsiz vəziyyətə gələnə qədər torpaqdan çıxan məhsulun satışını qadağan etmişdir (bax. Müslim, Büyu, 13). Məhz bu hədisə istinadən İslam alimləri bildirmişlər ki, tam yetişməmiş, insan üçün yemək və ya heyvan üçün yem halına gəlməyən göy-göyərti və meyvələrin satışı caiz deyil. Lakin insanlar üçün yemək və heyvanlar üçün yem halına gələn göy-göyərti və meyvələr tam yetişməsə belə satışı caizdir. Çünki bunlardan faydalanmaq mümkündür (müntəfəün bih) və qiymətli mal (mütəqəvvim) kimi qəbul edilir.

Sual: Müəyyən qədər pul müqabilində firmalara iş tapan və ya müştəri cəlb edənin qazancı halaldırmı?

Cavab: Dini cəhətdən halal olan bir malın alqı-satqısına, yaxud bir xidmətin göstərilməsinə vasitəçi olanın gördüyü iş müqabilində alıcı və ya satıcıdan, yaxud da hər ikisindən müəyyən qədər pul alması halaldır. Ancaq gördüyü iş müqabilində alacağı pulun əvvəlcədən müəyyən edilməsi məqsədəuyğundur. Əgər əvvəlcədən müəyyən edilməyibsə, adətənənəyə müvafiq hərəkət edilir. Nəticə etibarilə, müəyyən pul müqabilində firmalara iş tapan və ya müştəri cəlb edənin əldə etdiyi gəliri dini baxımdan halaldır. Təbii ki, həmin işdə və ya satılan malda dini baxımdan hər hansı qadağanın olmaması, müştərinin aldanmaması kimi şərtlərə xələl gəlmədiyi müddətcə bu kimi işlərlər məşğul olub qazanc əldə etmək halaldır.

Sual: Kredit kartından istifadə etmək olarmı?

Cavab: Bir müsəlman məcbur deyilsə, faizli bankların kredit kartlarından istifadə etməməlidir. Çünki həm faizə bulaşma ehtimalı, həm də faizli bankın dövriyyəsinə iştirak etmək məsələsi var. Ona görə də bu kimi hallardan uzaq durmaq lazımdır. Əks təqdirdə, "Maidə" surəsinin 2-ci ayəsində buyurulan **"Günah işlər görməkdə birbirinizə köməkçi olmayın"** ayəsinə əməl edilməmiş olar. Əgər faizli bankın kredit kartı məcburi şəkildə istifadə olunarsa, borclar vaxtlı-vaxtında ödənməlidir ki, faiz meydana gəlməsin. Onu da qeyd edək ki, bankların etdiyi kampaniyalar faizli sistemin hədiyyəsi olduğu üçün caiz deyil.

Sual: Bir müsəlmanın əlində faizdən gələn qazanc varsa, həmin pulla nə etməlidir?

Cavab: Bu məsələdə İslam alimləri iki fərqli rəy bildirmişlər. Belə ki, bəzilərinə görə, haram yollardan əldə edilən pul və ya digər şeylər heç kəsə verilmədən məhv edilməlidir. Ancaq başda İmam Qəzzali olmaqla digər bəzi alimlərə görə isə, bu kimi pul və digər şeylər yoxsullara verilməlidir. Çünki bunların məhv edilməsinin heç bir faydası yoxdur. Halbuki, möhtacların istifadəsinə verilməklə səmərəli şəkildə istifadə etmək mümkündür. Təbii ki, həmin şəxs bundan heç bir savab da gözləməməlidir, sadəcə olaraq məsuliyyətindən azad olmağı fikirləşməlidir.

Sual: Çoxdan qalan alacağımı bu günün şəraitinə görə geri verilməsini tələb etsəm, faizə girərmi?

Cavab: Əgər borc verilən şəxsə əvvəlcədən inflyasiyanı nəzərə alaraq zərəri də veriləcək deyə şərt qoşulubsa, həmin fərqi almaq caizdir. Baxmayaraq ki, zahirən verilən borcdan daha çox alınmış kimi görsənir, lakin əslində, çox alınmış sayılmır. Çünki verdiyiniz günkü dəyəri alınmış olur. Ancaq əvvəlcədən belə bir şərt qoşulmayıbsa, Əbu Hənifəyə görə, yalnız borc verilən məbləğ alınmalıdır. Əbu Yusifə görə isə, inflyasiya nəzərə alınaraq həmin nisbətdəki itgi geri alına bilər. Çünki bu, faiz deyil, dəyərin ödənməsidir.

Odur ki, borclar geri qaytarılarkən inflyasiya nəzərə alınaraq meydana gələn itgi də üstünə qoyularaq qaytarılmalıdır. Əks təqdirdə, götürülən borc tam verilməmiş olar və haqsızlıq meydana gələr. Lakin inflyasiyanın hesablanmasında bəzi çətinliklər olduğuna görə, borcluya qarşı haqsızlıq etməmək və aldığı borcdan daha çox ödəməsin deyə bir az aşağı hesablamaq məqsədəuyğundur.

Onu da qeyd edək ki, bu kimi hallarda borclunun vəziyyəti də nəzərə alınmalıdır. Belə ki, əgər borclu borcunu asanlıqla qaytarmaq iqtidarında olarsa, inflyasiya nəzərə alınaraq itgi alına bilər. Əks təqdirdə, Əbu Hənifənin rəyinə tabe olaraq fədakarlıq edilməlidir.

İsmayıl VƏLİYEV
valiyev1@gmail.com

QORXULARIMIZ!

Tez-tez uğursuzluğa düçar oluruq və bunların səbəbi əksər vaxt qorxularımız olur. Risk etmək qorxusu, yeni bir cəhd etmək, indiyə kimi heç olmamış bir hədəf seçmək və etmədiyimiz bir şeyi etmək. Bunların hər biri bir az qorxudur və bu qorxu hissi bizi etmək istədiklərimizə laqeyd yanaşmağa və etməmə səbəbi olaraq da özümüzü və ətrafdakıları inandırmaq və vicdanən rahatlamaq üçün saysız-hesabsız açıqlamalar gətirməyimizə səbəb olur, hansılar ki, sadəcə bəhanələrdir.

Əslində bu da bir vərdişdir. Zamanla bizdə formalaşmış və artıq həyatımızın ayrılmaz bir hissəsi olmuş vərdişlər kimi. Yeni cəhdlər etmək, yeni hədəflər seçmək, daha yüksək zirvələri gözə almaq və gərginlikdən deyil rahatdan qorxmaq, qorxuların üstünə getmək, kariyera və həyatında davamlı inkişaf istəyən hər bir kəs qarşısına məqsəd qoyub bu vərdişləri də özündə formalaşdıra bilər.

Hər bir önəmli dəyişiklikdə olduğu kimi, burada da əsas mane olan səbəbləri aradan qaldırmaq lazımdır, əks halda yaşayacağımız dəyişikliyin ömrü çox qısa olacaq. Kökündən həll olunmayan problem yenidən mütləq baş qaldıracaq və bu dəfə onun öhdəsindən gəlmək daha çətin olacaq, həmçinin o problemin bu dəfə ortaya çıxaracağı fəsadlar da çox daha ciddi olacaq mütləq.

Bəs bu səbəblər nələrdir? Bunlar qısaca ətrafdakıların reaksiyasının nə olacağıdır. Ətrafdakıların haqqımızda nə düşünəcəyi, ən əssası da yaşayacağımız mümkün uğursuzluqdan sonra bizə münasibətlərindəki dəyişikliklər necə olacaq. Əsas olan odur və əgər biz o münasibətin necə olub-olmayacağının önəmini hazırda olduğundan daha aza endirsək, o zaman azad olcağıq və ancaq bu halda həqiqi mənada nələr üçünsə cəhd etməyə və ola biləcəyimizin ən yaxşısı olmağa doğru cəsarətli addımlarla irəliləyəcəyik. Ətrafınızdakı insanlar şəxsiyyət və xarakterinə görə deyil, müvəqqəti uğur və ya uğursuzluğa görə səni dəyərli, ya da dəyərsiz biri kimi qəbul edirsə, onların nə

düşündükləri, düşünməli və nəzərə almalı olduğun ən son şey olmalıdır. Çünki uğursuzluğa deyil, cəhd etmək üçün göstərilən cəsarətə qiymət verilməli və alqışlanılmalıdır.

Burada demək istədiyim o deyil ki, heç kimin fikrinə hörmət etməyin və ciddiyə almayın. Ətrafdakı insanların düşüncələrinə hörmətlə yanaşamaq önəmli olduğu kimi, onlara həddindən artıq dəyişilməz reallıqlar olaraq da baxmamalıyıq. İşin əsası budur.

Ətraf mühitin təsdiqləmələrini və alqışlarını, gözləmədən nələrisə etmə azadlığını özümüzdə şüurlu olaraq formalaşdırmalıyıq. Çünki bizim üçün önəmli olan digərləri üçün heç də elə olmaya bilər və bu çox normaldır. İndi bu halda əgər sadəcə ətrafın dəstəyi və təqdiri sənin-çün önəmlidirsə, o zaman sən sənin-çün önəmli olanın arxasıınca getməyəcək və seçimini ətrafdakıların dəstəklədiyi istiqamətdə edəcəksən və bu yolun sonu sənin istədiyin deyil, əksinə, atacağın hər addım səni sənin-çün ən önəmli və həyati olandan uzaqlaşdıracaq.

Nələrisə dəyişmək və hansısa nəticələri əldə etmək istəyiriksə, bunların qarşılığını ödəməliyik. Qarşılıq nədir? Qarşılıq seçimlərimizin məsuliyyətini cəsarətlə öhdəmizə götürməkdir. Yəni nəyisə etməyi seçiriksə artıq bu seçimə görə, həmçinin bu seçimin nəticəsinə görə məsuliyyəti öz üzərimizə götürməliyik. Bu da artıq cəsarətli seçim edib addım atmağımızı göstərir və cəsarətin olduğu yerdə ya qorxu olmur, ya da qorxuya baxmayaraq hərəkət edirsən.

Hansısa bir amal uğrunda müvəffəq olmadıqda bundan sonra söz verməli və heç kimi, heç nəyi günahlandırmamalı, səbəb kimi göstərməməli və səbəbi özündə axtarmalısan. Səbəblər çoxdur, amma bu məqalənin mövzusu qorxu olduğundan sadəcə bu mövzu üzərində durulur.

Artıq uğursuzluq qorxusunu kənara atmalısan və uğursuzluq deyilən o hadisəyə yanaşma tərzini dəyişməlisən. Sadəcə bir dəfə deyil, dəfələrlə uğursuz olsan da, yenə də cəsarətini itirməməlisən və davam etməlisən, eynilə tövbəsini pozan adamın yenidən, bir daha tövbə etməsi kimi.

Uğursuz olmaq heç də mənfi bir şey deyil. Əslində ehtiyat edəcəyimiz xüsusi cəhdsizlikdir. Uğursuz olduqda ən azından cəhd etdiyin üçün və proses ərzində mübarizə apardığın üçün özünə inamın artır, səndə özünə hörmət formalaşır və yeni nələrsə öyrənirsən. Lakin cəhd etmədikdə etməli olduğun, amma etmədiyin nədirsə o sənin gözündə daha da böyüyür və zaman keçdikcə daha da çətinləşir. Bu da özünə olan inamının zədələnməsinə, özünü zəif biri kimi görməyə və zehnində bu cür bir imic formalaşdırmağa yol açır. Biz də kim oluruqsa, bu, adətən zehnimizdə gördüyümüz xəyali insanın realda təcəssümüdür.

Amma artıq uğursuzluq qorxusunu kənara atmalısan və uğursuzluq deyilən o hadisəyə yanaşma tərzini dəyişməlisən. Sadəcə bir dəfə deyil, dəfələrlə uğursuz olsan da, yenə də cəsarətini itirməməlisən və davam etməlisən, eynilə tövbəsini pozan adamın yenidən, bir daha tövbə etməsi kimi. Amma bir şərtlə hər uğursuzluğundan da bir professional konsultant kimi öyrənməyə çalışmalısan. Çünki uğursuzluqlarımız ən yaxşı kitab, ən savadlı müaəllim, ən professional konsultantdır. Hansı ki bizə istədiyimiz anda ən doğruları söyləyirlər həm də biz istədiyimiz anda, ödənişsiz və mükəmməlliklə.

Alpay Əhməd
Tarix elmləri üzrə fəlsəfə elmləri doktoru



MYANAMADA MÜSƏLMAN QIRĞINI

Artıq iki ilə yaxındır biz KİV-lərdən mütəmadi olaraq Myanmanın Arakan vilayətində yaşayan dinc Rohinya müsəlmanlarınının kütləvi şəkildə ən vəhşi üsullarla öldürülməsi, evlərinin, ibadət yerlərinin yandırılması, yaşadıqları yerdən qovulması ilə bağlı məlumatları almaqdayıq. Biz bu yazıda məsələnin tarixi və siyasi aspektlərinə varmaq istəmirik, bu barədə saytlardan kifayət qədər informasiya əldə etmək olar.

Fakt isə burasındadır ki, münaqişə nə siyasi, nə də hüquqi status almayıb, hələ ki, faciə olaraq davam etməkdədir.

Biz hələ ki, bu qırğınlara hardasa təbii, hardasa da qeyri-adekvat reaksiya ilə üzləşməkdəyik. Təbii deyəndə, biz milyonlarla müsəlmanların vəhşiliklərin əks olunduğu şəkil, videorolikləri görərkən keçirdiyi hiddət, qəzəb və nifrət hisslərini nəzərdə tuturuq.

Sadə müsəlmanlar öz hisslərini forumlarda bildirməklə, maksimum keçirilən xeyriyyə aksiyalarında iştirak etməklə ifadə edə bilirlər. Siyasi səviyyədə isə İslam Əməkdaşlıq Təşkilatı və bu quruma üzv olan ölkələr səviyyəsində sərt bəyanatlar verməkdə və əziyyət çəkənlərə humanitar yardım aksiyaları həyata keçirilмякдядир. Xüsusilə, bir neçə ay öncə Türkiyənin Xarici İşlər Naziri Əhməd Davutoğlunun Türkiyənin Baş Nazirinin həyat yoldaşı Əminə Ərdoğanla birgə regiona olan səfərini misal çəkmək olar. Bir tərəfdən isə, Yaxın və Orta Şərqdə baş verən siyasi kataklizmlər aparıcı müsəlman ölkələrini Arakanda müsəlmanlara qarşı törədilən vəhşiliklərin qarşısınıн alınması işinə lazımi diqqət ayırmağa imkan vermir.

Ən dəhşətlisi odur ki, dinc müsəlmanlara qarşı kütləvi qətl əməliyyatları birbaşa özlərini sülh ideyalarının carçısı hesab edən buddist monarxların və əsgərlərin iştirakı ilə həyata keçirilir.

Rohinya müsəlmanlarının hüquqlarının cəzasızlıq şəraitində pozulması növbəti dəfə dünyanın aparıcı dövlətlərinin "kütləvi qırğın" fenomeninə olan münasibətdə ikili standartların mövcud olduğunu göstərdi. Hələ bir dəfə də olsun bu məsələ istər BMT TŞ, istərsə də BMT Baş Assambleyasının müvafiq sessiyalarında öz mənəvi-hüquqi qiymətini almayıb. BMT Baş katibi Pan Qi Munun, Dalay Lamanın Myanmar

rəhbərliyini problemi həll etməyə çağırış bəyanatları isə deklarativ xarakter daşıdığından heç bir effektiv nəticə vermir.

Yuxarıda qeyd edildiyi kimi, hadisələrin bu cür gedişatı sonda proseslərin daha təhlükəli xarakter almasına aparıb çıxara bilər. Buna misal olaraq keçən əsrin 90-cı illərində keçmiş Yuqoslaviya Federasiyası və Ruanda ərazisində etnik zəmində olan kütləvi insan ölümləri ilə nəticələnən müharibələrini göstərmək olar. "Humanitar müdaxilə" ideyası altında aparılan əməliyyatlar isə, təəssüf ki, on, yüz min insan qətlə yetiriləndən sonra həyata keçirilmişdir. Eyni vəziyyəti biz Myanmada, yeri gəlmişkən, qismən Suriyada da müşahidə etməkdəyik.

Suriyada heç olmasa xalqı qıran rejimə qarşı mübarizə aparanlara dəstək verilir, B.Əsəd hakimiyyətinə qarşı sərt iqdisadi sanksiyalar qəbul edilir. Myanmada dinc müsəlmanları qıran polis və ordu qüvvələrinə qarşı heç bir tədbir görülmür.

Düzdür, biz hələ ki, Roщinya müsəlmanları tərəfindən zorakılığa qarşı haqlı silahlı müqavimətin şahidi olmuruq. Əksinə, onların dinc etiraz aksiyalarının vəhşicəsinə dağıdılması faktları ilə üzləşməkdəyik. Bir sözlə, elementar insan hüqurlarının, - ən əsası, yaşamaq hüqunun, - bu cür zorakı şəkildə pozulması ayrı-ayrı dövlətlərin milli maraqlarına qurban verilir.

Unutmayaq ki, bir çox müsəlmanların da dəfələrlə pislədiyi yaşıl bayraq altında ekstremist fəaliyyət aparan qrupların yaranmasının səbəblərindən biri İsrailin fələstinlilərə qarşı on illərlə apardığı ədalətsiz siyasət olmuşdur. Nə Qərbin terrorçu qruplaşma saydığı "Həmas", "Hizbullah", nə də dünyanın demək olar, bütün dövlətlərinin terrorçu hesab etdiyi "Əl Qaidə" təşkilatı bir, ya iki günün içində yaranmamışdır. Bunu nəzərə alaraq deyə bilərik ki, Arakanda baş verən zorakılıqlar da nəticədə həmin bölgədə yeni terror hərəkatının yaranıb vüsət almacына münbit şərait yarada bilər. Və belə olduğu təqdirdə dünya ictimaiyyətinin gecə-gündüz "Beynəlxalq terrora qarşı səylərimizi gücləndirməliyik" kimi şüarları, növbəti standart konvensiyaların və qətnamələrin qəbul edilməsi yalnız istehza doğuracaqdır.

Məhz bu faktorları nəzərə alan dünya ictimaiyyəti, ilk növbədə isə Myanma hökuməti, fikrimizcə, faciənin qarşısının alınması istiqamətində təcili effektiv tədbirlər görməlidir. Əks halda biz növbəti terror ocaqlarının şahidi olacaыq.

Bakıda «MDB müsəlmanları sülh və stabil inkişaf tərəfdarıdırlar» mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirildi

Aprelin 16-da Bakıda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin sədri olduğu MDB Müsəlmanları Məşvərət Şurasının "MDB müsəlmanları sülh və sabit inkişaf tərəfdarıdırlar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirildi.

MDB Müsəlmanları Məşvərət Şurasının konfransında dövlət və hökumət nümayəndələri, Tacikistanın, Ukraynanın, Qırğızıstanın, Serbiyanın, Moldovanın, Belarusun, Baltikyanı ölkələrin və Rusiya Federasiyasının subyektlərinin - Çeçenistan, Dağıstan, Tatarıstan və s. yerlərdən olan müsəlman liderlər iştirak etmişlər.

"Qurani-Kərim"dən ayələrin oxunması ilə açılan tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin və MDB Müsəlmanları Məşvərət Şurasının sədri şeyxülislam Allahşükür Paşazadə Müstəqil Dövlətlər Birliyinin müsəlman liderlərini Bakıda salamlayaraq konfransın işinə xeyir-dua vermişdir.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasının vacibliyini vurğulayan A.Paşazadə demişdir: "Biz tələb edirik ki, erməni işğalçıları tərəfindən başlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi beynəlxalq konvensiyanın tələb, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrdə də göstərildiyi kimi, ədalətli formada həll olunsun və Azərbaycan torpaqları geri qaytarılsın".

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlət başçısı İlham Əliyevin konfrans iştirakçılarına təbrik məktubunu oxumuşdur.

Rusiya Federasiyasının Prezidenti V. Putinin də konfrans iştirakçılarına təbrik məktubu oxunmuşdur. Məktubu Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin səsləndirmişdir.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Elşad İskəndərov şeyxülislam Allahşükür Paşazadənin MDB Müsəlmanları Məşvərət Şurasının növbəti dəfə sədri seçilməsini Azərbaycan müsəlmanlarına verilən yüksək dəyər kimi qiymətləndirmişdir. Tədbirin əhəmiyyətindən danışan Elşad İskəndərov ölkəmizdə dövlət-din münasibətləri, həmçinin Azərbaycandakı dini tolerantlıq barədə konfrans iştirakçılarına məlumat vermişdir.

Sonda konfrans iştirakçıları dinlər, konfessiyalar və sivilizasiyalar arasında dialoqa, multikulturalizm və tolerantlıq ənənələrinə xüsusi əhəmiyyət verən Azərbaycan dövlətinin rolunu yüksək qiymətləndirmiş, tədbirin keçirilməsində yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər. Konfransın sonunda yekun sənəd qəbul edilmişdir.

“Hz.Peyğəmbərimiz və İnsan Onuru” adı altında tədbir keçirildi

18.04.2013-cü il tarixində Park İNN hotelində Türkiyə Cümhuriyyəti Səfirliyinin Din Xidmətləri Müşavirliyinin təşkilatçılığı ilə Hz. Muhəmməd Peyğəmbərin doğum gününə həsr olunmuş ***“Peyğəmbərimiz və insan onuru”*** adı altında tədbir keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının dövlət himni və Türkiyə Cümhuriyyətinin İstiqlal Marşı ilə açıq elan edilmiş və Qurani-Kərimdən ayələr oxunmuşdur.

Daha sonra Hz. Peyğəmbərimizin nümunəvi həyatında insanlığın onur və şərəfinə verdiyi dəyərləri özündə əks etdirən video rolik nümayiş etdirilmişdir.

Tədbiri çıxış sözüylə açıq elan edən Türkiyə Cümhuriyyəti Səfirliyinin Din Xidmətləri Müşaviri Dr. Sadık Eraslan bütün qonaqları salamlayaraq Hz. Peyğəmbərin nümunəvi şəxsiyyətindən bəhs etdi. Dr. Sadık Eraslan eyni zamanda bu il Türkiyə Cümhuriyyəti Səfirliyinin Din Xidmətləri Müşavirliyi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan Yazıçılar Birliyi və Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun təşkilatçılığı ilə ümumrespublika səviyyəsində keçirilən “Nəti-Şərif” (Hz. Peyğəmbərə həsr olunmuş şeir) müsabiqəsinin əhəmiyyətindən söz açaraq bütün qaliblərə gələcək həyatlarında uğurlar arzuladı.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri İsmail Alper Coşkun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İsgəndərov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müşaviri, Bakı İslam Universitetinin dekanı Fuad Nurullayev, Millət vəkili Qənirə Paşayeva, Türkiyə Diyanət İşləri Başqanlığının nümayəndəsi Prof. Dr. Yavuz Ünal və “Nəti-Şərif” müsabiqəsinin münsiflər heyətinin sədri Əjdər Ol çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən bəhs etdilər.

Tədbirin sonunda “Nəti-Şərif” (Hz. Peyğəmbərə həsr olunmuş şeir) müsabiqəsinin qalibləri mükafatlandırılmış və yemək süfrəsi açılmışdır.

Qeyd edək ki, Nəti-Şərif müsabiqəsinin mükafatlandırma siyahısı aşağıdakı kimi oldu:

Qaliblər:

1-ci yer: Fərzəliyev Şahin (Fazil)
Vaqif Cəbrayıllı (Bayatlı)

2-ci yer: Dursun Çalışkan
Cabir Qasımov (Savalan)

3-cü: Eldar Kərimov
Gulayə Rzayeva
Aişə Nəbi

Fərqlənənlər:

Nizami Musayev (Zöhrabi)
Hikmət Fərzəliyev
Ələmdar Quliyev
Zahid Məmmədov (Sarıtorpaq)

Seyid Yəhya Bakuvinin "Şəfaül Əsrar" kitabı təqdim olundu

23 aprel tarixində Seyid Yəhya Bakuvi irsinin tanıdılması və təbliği istiqamətində İçəri Şəhər Şirvanşahlar Sarayı Kompleksində "Seyid Yəhya irsinin tanıdılması və təbliği" silsilə tədbirlərinə start verildi və Seyid Yəhya Bakuvinin "Şəfaül Əsrar" kitabının ikinci nəşrinin təqdimatı keçirildi. Tədbirin keçirilməsində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İB, "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İB, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu Avrasiya Regional Mərkəzi, Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, Azərbaycan Atatürk Mərkəzi və Türkiyənin Beynəlxalq İnkişaf və Əməkdaşlıq Təşkilatı təşkilatçılıq edirlər.

Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Mehmet Rıhtım tərəfindən hazırlanan kitabın ön sözünün müəllifi millət vəkili, Avrasiya Beynəlxalq Araşdırmaları İnstitutu İB-nin sədri millət vəkili Qənirə Paşayevadır.

Tədbirdə çıxış edən siyasi elmlər üzrə fəlsəfə doktoru Q. Paşayeva yeni nəşr olunan Seyid Yəhya Bakuvinin "Şəfaül Əsrar" kitabından söz açıb. Bildirib ki, kitabı uzun illərin əməyinin bəhrəsi kimi nəşrə hazırlayan Dos. Dr. Mehmet Rıhtım əsərin çevirisi ilə yanaşı, onun izahını da verib. Mehmet Rıhtım Azərbaycan təsəvvüf tarixinin, özəlliklə xəlvətilik sufi məktəbinin əsas tədqiqatçılarından olub, Seyid Yəhya irsinin nəinki Azərbaycanda, həm də dünyada tanıdılması üçün böyük əmək sərf edib. Belə ki, Seyid Yəhyanın "Şəfaül Əsrar" əsərinin Türkiyə türkcəsində artıq iki nəşri işıq üzü görüb, habelə alban və ingilis dillərinə çevrilməsinə başlanılıb.

Seyid Yəhyanın zəmanəsinin ruhuna və ədəbinə uyğun qələmə aldığı "Şəfaül-Əsrar" əsəri Azərbaycanın təsəvvüf tarixində özünəməxsus yer tutmaqla yanaşı, həm də xüsusi mərhələdir".

Türkiyə Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri GYF-nin qonağı oldu

24 aprel tarixində Bakıda səfərdə olan Türkiyə Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç Gəncliyə Yardım Fondunu ziyarət edib.

Fondun rəhbərliyi ilə görüşən qonaqlara günü gündən inkişaf edən Azərbaycan haqqında geniş məlumat verilib.

Çay süfərsi ərtafında davam edən görüşdə Fondun həyata keçirdiyi fəaliyyətləri özündə əks etdirən video-rolik nümayiş etdirilb.

Görüşdə Türkiyə Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Departamentinin rəhbəri Kemal Yurtnaç, Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecimə bu uğurlu fəaliyyətlərinə görə öz təşəkkürünü bildirib və Gəncliyə Yardım Fondunun həyata keçirdiyi ləyihələrin iki dövlət arasındakı qardaşlıq əlaqələrinin daha da inkişafındakı əhəmiyyətindən danışıb.

Görüşün sonunda qonaqlara Azərbaycan tarixi və həqiqətlərini özündə əks etdirən Qarabağ: Suallar və Faktlar kitabı hədiyyə edilib və qonaqlarla xatirə şəkilləri çəkilib.